**Rafiq Əliyev**

# HAKİMİYYƏT, CƏMİYYƏT VƏ DİN

**Bakı – 2008**

**Kitab "İrşad" Mərkəzində yığılıb, korrektə olunub və səhifələnib**

**Məsul şəxslər: Aygün Ağayeva, Günay Quliyeva, Şərqiyyə Bayramzadə**

*RAFİQ YƏHYA OĞLU ƏLİYEV*

**HAKİMİYYƏT, CƏMİYYƏT VƏ DİN**
**2008, Bakı şəh., 77 səh.**

**Oxuculara təqdim olunan bu kiçik həcmli kitab zəmanəmizin çox vacib və aktual mövzusuna – hakimiyyət, cəmiyyət və dinin qarşılıqlı münasibətlərinə həsr olunub. Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində 5 il ərzində sədrliyi zamanı əldə etdiyi təcrübədən çıxış edərək, müəllif cəmiyyətin sadalanmış üç tərkib hissəsinin arasında tək qarşılıqlı əlaqə deyil, həm də qarşılıqlı asılılıq və qarşılıqlı tamamlamanın mövcud olması haqda fikri əsaslandırmağa çalışır. Müəllif hesab edir ki, onların daxili əlaqələri bütün cəmiyyətdə balansın qorunub saxlanmasında məntiqi əsasdır.**

**Nəşrin sponsoru:**
**"İRŞAD" İslam Araşdırmaları Mərkəzi**

Azərbaycan, Bakı, AZ 1007, Vaqif prospekti, 11[a]
Tel/Faks: (994 12) 441 01 32/33/34
E-mail: rafigaliyev@gmail.com

Tiraj: 2000

**© "İrşad" Mərkəzi**
**© "Apostrof"**

# ÖN SÖZ

Hakimiyyət, cəmiyyət və din münasibətlərinin vacibliyi və aktuallığı, bu münasibətlərin fəlsəfi əsaslarının genişliyi və dərinliyi təqdim olunan kiçik həcmli kitabda mövzunun mahiyyətini daha geniş və ətraflı şərh etməyə imkan vermir. Odur ki, məsələnin həllinə müxtəlif yollarla yanaşaraq, hissə-hissə şərh etməyə üstünlük verilmişdir.

Əlimizdə olan materialları, seçilmiş mövzu ilə bağlı son 15 ilin nəşrlərini təhlil edərək, biz öz nöqteyi-nəzərimizdən, bu mövzunun kifayət qədər peşəkar, düzgün və sadə şəkildə şərh olunmadığı məqamlarına toxunmuşuq. Verilən mövzuya dair ayrı-ayrı tədqiqat və nəşrlərdən aydın olur ki, burada məhz din, cəmiyyət və hakimiyyətin qarşılıqlı münasibətinin bütün mümkün formaları, yəni **qarşılıqlı asılılıq** və **bir-birini tamamlama** təməl əsası kimi götürülmür. Kitabı üç şərti fəslə bölərək, biz qeyd olunan problemə dair öz fikrimizi bildirməyə çalışmış və göstərmək istəmişik ki, hakimiyyət şaquli (yuxarıdan idarə etmə sistemi), cəmiyyət və din isə – üfqi, yəni həyatımızı təşkil edən bu üç şeyin əsaslandığı mənəvi-əxlaqi dəyərlər sistemi və ya məcmusunu ifadə edərək, bütöv və real varlıq mahiyyəti daşıyır.

Məsələnin belə qoyulmasını əsas tutaraq, qəbul olunmuş ənənəvi metodologiyaya əsaslanmaqla onların qarşılıqlı münasibət və asılılığı fikrini ayrı-ayrı deyil, bütöv şəkildə nəzərdən keçirmək üçün ilk cəhd edilib. Biz belə hesab edirik ki, hakimiyyət, cəmiyyət və din bəzi istisnaları çıxmaqla, əslində heç vaxt bir-biri ilə ciddi şəkildə düşmənçilik etməyib, biri digərini məhv etmək uğrunda mübarizə aparmayıb, əksinə, onların zahirən görünməyən, lakin dərin mahiyyət yüklü münasibətləri əsrlər boyu mövcud olub və indi də var.

Düşünürük ki, belə üzvi əlaqə olmadan, əsas etibarilə, cəmiyyətə sığınaraq özünü hifz edən hakimiyyət strukturunun təməli dağılardı. Öz növbəsində, cəmiyyət bütövlükdə dinin əxlaqi-etik dəyərləri sayəsində özünümühafizə və özünə daxili nəzarət üçün güc və enerji toplayır. Belə olmasaydı, dinə məxsus daxili özünənəzarət sistemindən istifadə etmədən, heç bir cəmiyyət seçdiyi hakimiyyət forması ilə birlikdə uzun müddət mövcud ola və güc müvazinətini tənzimləyə bilməzdi.

Ümidvarıq ki, bu kitabda toplanan məlumatlar və müəllifin yalnız nəzəriyyəyə deyil, eləcə də təcrübəyə əsaslanan maraqlı mülahizələri oxucuya mürəkkəb və heç də hər zaman şəffaf olmayan hakimiyyət, cəmiyyət və din münasibətləri ilə az da olsa tanış olmağa yardımçı ola bilər.

# I FƏSİL

## DİN VƏ CƏMİYYƏT

***Din, ciddi şəkildə təşkil edilmiş, strukturlaşdırılmış etiqad sistemidir.***

**Cəmiyyət, demokratiyanın özünəməxsus laboratoriyasıdır.
(mahiyyətcə dünyəvi olan qanunların nəzəriyyəsi və tətbiqi)**

# İNAM VƏ SEVGİ... AĞIL VƏ RUH...

## (Harmoniya, yoxsa ziddiyyət)

*İnam da sevgi kimi nəhayətsiz sərhədlərə malikdir: üfüq də görünmür, hüdudları yoxdur*

İnam insanın ruhu və ağlını eyni zamanda ələ ala bilərmi? Əgər belə olarsa, onda bu vaxt nə baş verər? O, bu vəhdətin – inam və ağlın quluna çevrilirmi? Çoxları belə insanı fanat, asket, zahid, tərkidünyalı bir məxluq və ya bundan daha da pis – dəli adlandırır. Təəssüf ki, bütün bunlar həqiqətdir.

Məgər Qeys qəlbdən sevərək, yəni öz ruhunu və ağlını sevgiyə təslim edərək, Məcnun olmadımı? Yaxud da tarixdə asketlər – öz ruhu və ağlını hansısa bir ideya və ya əqidəyə tabe etmiş insanlar haqqında faktlar azdırmı? Məgər xristianlıqda rahib evləri (monastırlar) buna parlaq bir nümunə deyilmi? Yaxud əsrlərlə mövcud olan (onlar bu gün də var) və özünü cəmiyyətdən təcrid edən katolik ordenlərini də misal göstərmək olar. Avropanın tarixi salnamələri yüzlərlə belə ordenlərin mövcudluğunu təsdiqləyən faktlarla zəngindir. Bu ordenlərin adi üzvləri onlara dini-siyasi rəhbərləri tərəfindən tədricən, ardıcıl şəkildə qəbul etdirilən ideya uğrunda həyatlarını belə qurban verirdilər. Məgər ideya fanatlarının qurbanı olmuş hakim kral sülalələri, onların ailə üzvləri və digər məşhur insanlar az olubmu? Məgər tampliyerlərin gizli ordeni vaxtilə Avropanı və xüsusilə də Fransanı sarsıtmadımı?

O zamanlar din Avropa üçün müqəddəslikdən böyük, mövcud olan istənilən hakimiyyətdən də üstün idi. Avropa və

Rusiya kimi ölkələrin bütün hökmdarları Allahın yerdəki hakimləri sayılırdılar. Mahiyyətcə dünyəvi olan hər bir hakimiyyətə din, xüsusilə də xristianlıq prizmasından baxılırdı. Əsl, səmimi iman ölkəni idarə etməyə mane olmasın deyə, bir çox əyanlar kardinal, yaxud da Misirdəki kimi kahin libası geyinirdilər. Allahın adından hakimlik edirdilər, ona görə onların varisləri hələ də qalıblar və indiyədək hakimlik edirlər. «Hər cür hakimiyyət Allahdandır» ifadəsi onların əsas şüarına çevrildi və əslində, burada məqsəd Allahın qüdrət və əzəmətini göstərərək, Onu razı salmaq deyil, Onun adından cəmiyyətə hakimlik edərək, insanları Allah xofu altında idarə etməkdən ibarətdir. Allahın adı arxasında gizlənərək öz hakim ambisiyalarını təmin etmək onlar üçün daha rahat və daha zərərsiz idi. Sadə, savadsız xalqa öz əməllərinin, o cümlədən də əksər hallarda yalnız Allahın yaratdığı canlı məxluqlara qarşı deyil, həm də əslində Allaha qarşı yönələn rəzil, yırtıcı mahiyyətlərinin mənasını bu üsulla başa salmaq daha asan idi.

Tarix göstərir ki**, inam** ideologiyaya çevrildiyi zaman çox şeyə qadir olur. İnamı yalnız qəlbi ilə deyil, ağlı ilə də qəbul edən şəxs özündən asılı olmayaraq ətrafındakılar üçün təhlükəli insana çevrilir - ya o, yaşadığı cəmiyyətin özünü artıq qəbul etmir, ya da yalnız onun inamına, ideal və prinsiplərinə, onu iradəsiz qula çevirən keşiş və dini liderlərin öyrətdiklərinə uyğun gəlmədiyinə görə yaşadığı cəmiyyəti məhv etməyə başlayır.

Buna görə də qədimdən inam və sevgini ağıl süzgəcindən keçirmək qəbul olunmurdu – əks təqdirdə, onların hər biri ayrılıqda öz mahiyyətini itirər, yaxud onların daşıyıcısı olan insan ruh və şüur ilə silahlanaraq, yoluna çıxan hər şeyi və hər kəsi məhv edərdi. Ekstremizm, terrorizm, qurban və ya şəhid adlandırılan və özlərinə qəsd edən insanlar da yəqin ki, məhz bu səbəbdən mövcuddur. Əksəriyyətin qəbul etdiyi kimi, onlarda nə inam, nə də ki Allah sevgisi var; onlar

üçün Allah özü də mövcud deyil. Əks təqdirdə, onlar Müqəddəs Kitablarda bəyan edilən Allahın iradəsinə qarşı çıxmaz, özləri ilə birlikdə çoxlu sayda başqa insanları da məhv etməzdilər. Allahın yaratdığı digər insanlara mənəvi və fiziki əzab verməzdilər. Onlar əqidə uğrunda ölsəydilər, o zaman hər şey daha asan olardı. Hər belə fanat hansısa bir yerdə xəlvətə çəkilər və özünə sui-qəsd edərdi. Yaxud da Zərdüştün tərəfdarları kimi, etiqadına görə, öz ölümünü və Allah ilə yenidən birləşməni yaxınlaşdıraraq, qida qəbulunu müntəzəm olaraq azaldar, fiziki cəhətdən zəifləyər və dünyanı tərk edərdilər. Belə olduğu halda, bu kimi insanlar heç kimə hiss ediləcək dərəcədə ziyan vurmazdı.

Bir çox dini fanatlar bu gün də belə edir. Rahib evlərində cüzi qida almaq üçün kiçik pəncərəsi olan ayrı-ayrı otaqlar mövcuddur. Rahib öz iradəsi ilə cəmiyyətdən təcrid edilir və çox zaman az bir müddət keçdikdən sonra onun ruhu bədənini tərk edir. Cəmiyyət nədənsə belə hadisələrə səbirlə, hətta rəğbətlə yanaşır. Rahibin etdiklərini imanın dərinliyi hesab edərək bəzən qəhrəmanlıq kimi də qiymətləndirirlər.

Adi bacarıqlı bir insanın cəmiyyətdə gedən proseslərə qarşı etiraz edib hər şeyə biganəlik göstərməsi adətən eqoizm kimi qiymətləndirilir. Rahib isə iradəli bir mömindir! Yəqin ona görə ki, bu, cəmiyyətin özünə güclü təsir etmir və ən əsası, hakimiyyət üçün təhlükə yaratmır. Hesab edilir ki, insan azad doğulub və o öz həyat yolunu, o cümlədən də Allaha aparan yolu müstəqil surətdə seçməlidir. O yalnız öz həyatını, yalnız özü-özünü məhvə aparır. Bu xüsusda ancaq təəssüf etmək və heyfsilənmək olar, lakin heç kim hiddətlənmək və bu seçimi insan toplumunun, cəmiyyətin mənafeyi prizmasından təhlil etmək fikrində deyil. Amma nahaq yerə!

Eyni din və məzhəbdən olan icmaların bu cür səhlənkarlığı və biganəliyi ucbatından özünü məhv etmənin bütün formaları təşviq edilir. Dünya birliyi adətən evtanaziyanı pisləyir, damğalayır, lakin rahib evlərinin yüzlərlə biradamlıq

hücrələrində heç bir məhkəmə və hökm olmadan özlərinə qəsd edənləri təqdir edir.

Onda, özünü öldürən rahib insanların yanında, kütlə arasında, eyni zamanda bir neçə başqa insanın həyatına son qoyaraq özlünü partlatmaq qərarına gələn fərdi intiharçıdan nə ilə fərqlənir? Onların hər biri cəmiyyət və insanlara mənəvi və fiziki əzab verir, insan ləyaqətini və Allahın özünü belə təhqir etmiş olur.

Əlbəttə, özünə qəsd edən terrorçu ilə fərdi dini fanatı müqayisə etmək düzgün olmazdı. Niyyət və nəticələr müxtəlifdir. Ancaq söhbət bu hərəkətin mənasının, mənəviyyat, əxlaq və birgə yaşayış normaları çərçivəsindən kənara çıxan bu cür əməllərə cəmiyyətin münasibətinin necə olmasından gedir. Ona görə də dini asketə laqeyd yanaşaraq, biz, dini ekstremizmə, daha dəhşətlisi isə din pərdəsi altında fəaliyyət göstərən terroristə yardım göstərmiş oluruq.

Burada da cəmiyyət harmoniya və ziddiyyət arasında seçim ilə qarşılaşır. Qəbul edilmiş bir sxem mövcuddur: inkişaf və ziddiyyət münasibətləri öz növbəsində harmoniyaya gətirib çıxarır və özünütəkmilləşdirmə prosesi davam edir. Lakin təbiət özü bir qədər fərqli inkişaf və təkmilləşmə yolu nümayiş etdirir. Bu yol onu göstərir ki, inkişaf harmoniyada deyil, məhz ziddiyyətdədir. Harmoniya – daha az müddət mövcud olan anlayışdır, tezliklə onun sonu gəlib çatır. Eyni sahədə bir-birinin ardınca bir neçə dəfə, məsələn, buğda toxumu əkmək olmaz. Buğda və torpaq harmoniyasının potensialı tükənir və məhv olur. Ancaq iki il əvvəl onlar nə qədər xoşbəxt və gözəl görünürdülər! İndi buğda özünə başqa tarla tapmalı və yeni harmoniya yaratmalıdır, torpaq isə artıq başqa növ bitkilər – qarğıdalı, pambıq və s. ilə yenidən harmoniyaya daxil olmalıdır.

Zənnimcə, ziddiyyət özündə başlanğıc və inkişafı cəmləşdirən sonsuz anlayışdır. Bəşəriyyətin bütün dahi insanları daim öz zəmanələri və yaşadıqları cəmiyyət ilə ziddiyyətdə

olublar, bəziləri isə indi də belə yaşayır. Onlar cəmiyyət ilə harmoniya vəziyyətinə daxil olan kimi, adətən inqilablar baş verir, həmin ölkə bədbəxtliklə üzləşir, cəmiyyət öz müvazinətini itirir. Çünki onlar yaşadıqları cəmiyyətin, zamanın fövqündə özlərinə yer tutur, sanki cəmiyyəti yüksəklikdən müşahidə edirlər. Məgər tarix, o cümlədən yaxın keçmiş (XX əsr) hadisələrin bu cür inkişafına dair bizə yüzlərlə misal təqdim etmirmi? Məgər bu gün biz harmoniya, eləcə də ümumi razılıq və sülh cəmiyyətindəmi yaşayırıq? Məgər bu gün cinayətkar, dələduz, qatil və xəzinə oğruları azdır? **Məgər TV-də, mətbuatda çıxış edərkən, yaxud dostumuz və ya rəfiqəmiz ilə şəxsən söhbət edərkən biz özümüz ilə harmoniyada oluruq? Qətiyyən yox və hamı bunu çox gözəl bilir. Bunu etiraf etmək – normal həyat sürməyi, səmərəli surətdə birgə yaşamağı, daimi həqiqət, harmoniya və ideal axtarışı vəziyyətində rahat mövcud olmağı dayandırmaq demək olardı.** Digər halda bu, həyatın mənasının yoxluğunu ifadə edərdi, deməli, insan mövcudluğunun sonuna çox az qaldığını hiss edir. **Odur ki, real həyatda yaşamaq həyatın özü haqqında olduqca dumanlı bir anlayışda yaşamaqdan daha çətindir.** Ona görə də biz bu idealı heç kimin işləmədiyi, danışmadığı, sevgi və ya digər münasibətlərdə olmadığı axirət dünyasında axtarırıq. Din mütəfəkkirlərinin fikirlərinə görə, orada yalnız insanın uzun mübarizədən sonra tərk etdiyi bədənə nifrət bəsləyən ruhu mövcuddur və o, eyforiya, daimi həzz alma vəziyyətindədir. Orada heç bir ziddiyyət və ya harmoniya yoxdur, orada hər kəs başqasının yolunu kəsmədən, qonşusunun tikəsini əlindən almadan, oğurlamadan, öldürmədən öz-özlüyündə mövcuddur. Orada əsl bərabərlik və bizim nifrət etdiyimiz biganəlik hökm sürür, tam sərbəstlikdir. Onları iman, sevgi, ağıl kimi məfhumlar maraqlandırmır. Orada biganəlik həyat tərzidir, faydalıdır, bizim üçün isə biganəlik fəlakət və rəzalət rəmzidir. Bir dünyadan digərinə keçid də, görünür, biganəlik aləminə apa-

ran körpüdür. Sonumuzun belə olduğunu bilərək, biz bu dünyada həyatın digər ifadə formalarından faydalanmalıyıq. Yaşamağın, bir dünyadan digərinə keçidin fərqini, mənasını bilmək üçün!

Lakin söhbətin əvvəlinə qayıdaraq belə bir nəticəyə gəlmək olar ki, inam və sevgi ruh, emosiya və hisslər çərçivəsindən kənara çıxmamalıdır. **Ağıl inam və sevginin qulu olmadan və onlara onun süzgəcindən keçməyə icazə vermədən, hər halda, bu iki məfhum ilə birgə mövcud olmalıdır.** Təbiətdə ağıl və inam, ağıl və sevgi vəhdətinin bu birlik üzvlərinin mütləq məhvinə səbəb olması faktları olduqca çoxdur. Digər hallar barədə tarix sadəcə heç bir məlumata malik deyil.

# İDEYA ÖLMƏZDİR, ONU YALNIZ DİGƏRİ İLƏ ƏVƏZLƏMƏK OLAR

*İdeya ölməzlik keyfiyyətinə malikdir.*
*Açıqfikirli, aydın düşüncəli insanlara təsir göstərmək elə də asan iş deyil*

Son zamanlar din, onun cəmiyyətdə və siyasətdə yeri və rolu mövzusunda dəyirmi masaların, seminarların və hətta beynəlxalq konfransların keçirilməsi adət halını almışdır. Onların əsasında hazırkı dini vəziyyətin yaxşılaşdırılması istəyinin durmasını normal hadisə hesab etmək olardı. Lakin bütün təhlillər onu göstərir ki, bu tədbirlərdə din sahəsindəki tədqiqatları ilə fərqlənməyən insanlar iştirak edir, mühazirələr söyləyir və mübahisələr aparırlar. Seminarların mövzusuna yanlış münasibət isə razılıq və dialoqa çağırışdan daha çox dini qruplaşmaların radikallaşmasına xidmət edə bilər. Necə deyərlər, “aldın qrantı, xərcləməlisən manatı”. Elə buna görə də, bu məsələlərlə bağlı öz şəxsi fikrimi bildirmək istərdim. Əsas – yalnız qüsurları görüb-göstərmək deyil, həmçinin vəziyyətin yaxşılaşdırılması və ölkəmizdə müxtəlif dini qruplaşmaların radikallaşması təhlükəsinin azaldılması mexanizmlərini işləyib hazırlamaqdır. Lakin əvvəlcə bizim qrant alan vətəndaşlarımızı narahat edən fikirlərin nədən ibarət olduğunu bilmək vacib olardı.

Dini araşdırmalar sahəsində azsavadlı insanlar cəmiyyətimiz üçün qəbuledilməz olan fikir və ideologiyalar haqqında danışarkən bəzən əsassız yerə vahiməyə düşür və tez-tez belə bir fikir söyləyirlər ki, guya “işlər belə getsə”, tez-

liklə yüzillik adət və ənənələrə son qoyulacaq və ölkəmizin əksər əhalisi üçün qəbuledilməz olan ideyaları təbliğ edən missionerlər elə edəcəklər ki, bizim fərdi xüsusiyyətlərimiz, milli keyfiyyətlərimiz çox tez bir zamanda öz yerini yad ideyalara verəcəkdir. Guya amerikalı Corc Soros, Koreya vətəndaşı Sen Mun, ərəb əsilli Məhəmməd Əbdül Vəhhab kimiləri və müxtəlif xristian missionerləri bizim cəmiyyətimizi tolerantlığa, dözümlülüyə yol verilməz bir cəmiyyətə çevirəcəklər. Mən belə fikir və rəyləri konkret əsasları və tutarlı maddi dəlilləri olmayan fikirlər hesab edirəm.

Mən oxuculara C. Soros, Sen Men Mun, Səid Nursi, Fətullah Gülən, Süleyman Əfəndi (sonuncu üçü sevgi ideyası – sufizmin tərəfdarları hesab olunurlar), V.İ. Lenin, K. Marks, F. Engels, A. Hitler, Napoleon, Y. Sezar və başqa bu kimi insanların fikirlərini müqayisə etmək imkanı vermək istərdim. Bu insanlar zənn edirdilər ki, onların hər biri üçün absolyuta çevrilən ideya ilə dünyanı idarə etmək mümkündür.

Məsələn, C. Sorosa görə, "Açıq Cəmiyyət" kimi tanınan ideyanın həyata keçirilməsi cəmiyyətin özünün keyfiyyətinin əhəmiyyətli dərəcədə yaxşılaşmasına gətirib çıxaracaq. S.M. Mun isə bütün dünyəvi dinlərin əsasında yeganə birləşmiş Kilsənin yaradılması fikrini irəli sürmüşdür. Daha sonra o, tədricən sevgi, sülh və razılıq cəmiyyətinin prototipi olacaq ideal ailənin formalaşdırılması (öz ailəsinin nümunəsində) ideyasını fəal şəkildə həyata keçirməyə başladı və bu da onun fikrincə, bir Allahın övladları olan bütün insanları qarşılıqlı münasibətlərin tam harmoniyasına gətirib çıxara bilərdi.

Səid Nursi (Nurçular hərəkatının yaradıcısı) düşünürdü ki, gələcək nəslin elm və dinin vəhdəti əsasında düzgün tərbiyə olunması bütün dünya insanlarının həyatının yaxşılaşdırılması üçün ideal sosial-iqtisadi və əxlaqi şərait yaradacaq. O, keyfiyyətcə yeni həyatın əsasını əxlaqi tərbiyə sistemləri üzrə gənclərin ağıl istiqamətlərinin dəyişdirilməsində görürdü. V. Lenin, K. Marks, F. Engels hesab edirdilər ki,

cəmiyyətin bütün qüsurlarının və bəlalarının əsasında kapitalist münasibətlərin yırtıcı mahiyyəti durur (bu fikir qismən də olsa doğrudur). Onların qənaətinə görə, sərvətin ədalətli şəkildə bölüşdürülməsi dünyanı məhvdən xilas edə bilər və etməlidir. Hitler inanırdı ki, bütün dünyanı Allah tərəfindən seçilmiş millət – almanlar idarə etməlidir (Müqəddəs Kitablarda göstərildiyi kimi yəhudilər deyil, məhz alman-arilər).

Sufilər inadla təsdiq edirdilər və bu gün də təsdiq etməyə çalışırlar ki, yalnız insanların bir-birinə və Allaha qarşı bəslənən sevgisi onları xilas edəcək və düzgün həyat tərzinə, dünyada mövcud olan hər şeyin Yaradıcısı – Allaha yenidən qovuşma yoluna yönəldəcəkdir.

Tarixdə belə fikir və ideologiyalar çox olmuşdur və təəssüf ki, onlar bu gün də mövcuddur. Dünya heç vaxt cəmiyyətin əsasını təyin edən fikir və ideologiyalarsız mövcud olmayıb və bu gün də buna bənzər ideyalarla yaşamağa məhkumdur. Cəmiyyətin deideologizasiyası da belə, qismən mənasız ideyalara aiddir.

Beləliklə, görkəmli mütəfəkkirlər, siyasətçilər, din xadimləri və sadəcə ideoloji xəyalpərəstlər estafeti nəsldən-nəslə ötürür və burada qəribə heç nə yoxdur. Onlardan hər biri, məsələn, C. Soros postsovet məkanı da daxil olmaqla insanların böyük say çoxluğundan istifadə edərək, öz ideyalarını həyata keçirmək üçün milyonlarını xərcləməkdən həzz alır. Onun üçün bizim ölkələrimiz poliqon, xalqlarımız isə üzərində təcrübə aparılan həqiqi canlı məxluqdur. O, ölkələri öz ideyaları ilə təcrübə aparmaq üçün bir növ laboratoriyalar kimi təsəvvür edir.

Məşhur ideoloqlar ideyanın maddi olmadığını və nə qılınc, nə güllə, nə də atom bombası ilə də məhv edilməyəcəyini dərk edirlər. Onun, Allah ideyasında və yaxud da Allahın özündə olduğu kimi fiziki xüsusiyyətləri yoxdur. Elə buna görə də belə **ideyalar çox mühüm keyfiyyətə - ölməzlik keyfiyyətinə malikdirlər. İdeyanı yalnız daha tutarlı, zamanın**

**və həmin zaman çərçivəsində yaşayan insanların həyat tərzini və təfəkkür incəliklərini nəzərə alan daha əsaslı ideya ilə əvəz etmək ola**r.

Yuxarıda sadalanmış ideyalardan bəziləri indi də bizim nəslin fikir və davranışlarında möhkəm yer tutmaqda davam edir. Sezar, Napoleon və Hitlerin müharibələr, C. Sorosun – rəngli inqilablar, S.M. Mun, S. Nursi və Əbdül Vəhhabın – insanların sosial davranışının və şüur tərzinin bütövlüklə dəyişdirilməsinə yönələn ideyalarının bu gün tərəfdarlarının olmadığını kim təsdiq edə bilər? Onlar bizim həmvətənlərimiz, xüsusilə də, çox güman ki, obyektiv səbəblərdən sosial-əxlaqi və ideoloji oriyentirlərini itirən gənclər arasında daha çox mövcuddur.

Bir şey məlumdur ki, açıqfikirli, aydın düşüncəli insanlara təsir göstərmək elə də asan iş deyil. Bizdə belə insanlar çoxluq təşkil edir. Lakin dərd orasındadır ki, bu gün həmin ideyalara qarşı qoymağa əsassız etiraz və kəskin tənqiddən başqa hələ ki heç nə yoxdur. Əlbəttə, adi insan üçün gözəl və inandırıcı şəkildə ona təqdim olunan hər-hansı ideyada xeyirin, yoxsa şərin çox olmasını dərk etmək çətindir və belə olduğu halda, şübhəsiz ki, alternativ ideyalara çox böyük ehtiyac var.

Tarixdən bizə məlum olduğu kimi, hər bir ideyanı elə təqdim etmək mümkündür ki, o, çox cəlbedici, hətta, bütün cəmiyyət və ayrılıqda hər bir insan – potensial obyekt üçün həyati əhəmiyyət kəsb edə bilsin. Lakin bu ideyaya çoxlu vəsait sərf etmək və ona sadiq insanları tapmaq vacibdir. Yəni, yenidən əvvələ - kobudcasına desək, ayrıca bir qrupun, onun vasitəsilə isə cəmiyyətin böyük bir hissəsinin beyinlərinin süzgəcdən keçirilməsi mexanizminə qayıdırıq. Əlbəttə, insanlar səni əliboş qəbul etməyəcəklər. Bu, danılmaz faktdır. Əgər qəbul etsələr də, başa düşməyəcəklər və Səndən uzaqlaşmağa cəhd göstərəcəklər. Onlara ən azından:

a) konkret maddi marağın təminatı;
b) sosial-maddi vəziyyətin daha da yaxşılaşdırılmasını əsaslandıran ümid lazımdır.

Əlbəttə, hər iki arqumentə malik olmaq daha yaxşıdır. Onda, çox ehtimal ki, ideyanın uğuru təmin ediləcəkdir.

Yuxarıda qeyd edildiyi kimi, tarixdən yaxşı bəllidir ki, ideyanı yalnız ideya ilə əvəz etmək olar. Digərləri, o cümlədən güc arqumentləri adətən yaxşılığa gətirib çıxarmır, onlar əks təsir göstərə bilər, yəni yasaq edilən ideya daha güclü, ona son qoymaq vəzifəsi isə daha da çətin ola bilər.

Buna görə də insan cəmiyyətinin inkişafının bu tarixi təcrübəsini bizdə də nəzərə almaq faydalı olardı. Xüsusən də ona görə ki, onun çox real konturları və məntiqi izahı vardır. Bu, bizim geosiyasi mövqeyimiz və beynəlxalq nüfuzumuz, müstəqillik və suverenliyimizdən irəli gəlir.

# SİYASƏT VƏ DİN MƏNƏVİ-ƏXLAQİ DƏYƏRLƏR FONUNDA

*Azadlığın istənilən forması, o cümlədən dini azadlıq dövlətdə qüvvədə olan və çərçivəsindən kənara çıxmasına heç kəsə icazə verilməyən qanunlarla məhdudlaşdırılır*

Son zamanlar ictimai xadimlər, siyasətçilər və jurnalistlər dini amilə daha çox diqqət yetirməyə başlayıblar. Müxtəlif seminar və mətbuat konfranslarında etdikləri çıxışlar zamanı dini istilahların işlədilməsi onlar arasında artıq dəb halını alıb. Bununla əlaqədar olaraq «dəyirmi masa»lar keçirilir və orada iştirak edənlər islamın nəinki cəmiyyət və fərdin, hətta, bütövlüklə dövlətin həyatında oynadığı rolu və yeri ilə bağlı ciddi məsələləri öz bilik səviyyələrində müzakirə edirlər.

Belə bir təəssürat yaranır ki, bir sıra siyasi və ictimai qruplar ciddi surətdə dövlətin tam şəkildə həllini tapmamış sosial-iqtisadi, mənəvi və hətta siyasi problemlərini ümumiyyətlə dinin, bizim halda islamın köməyi ilə həll etmək niyyətindədirlər.

Lakin ola bilər ki, bunların hamısı yalnız bir məqsədlə, yəni Azərbaycanda fəaliyyət göstərən islam hərəkat və qrupları tərəfdarlarının yardımını almaq üçün həyata keçirilir. Möminlərin səsi və şüuru uğrunda mübarizə gedir. Bizim vətəndaşlarımızın şüuru üstündə «davanı» təkcə siyasi partiyalar və hərəkatlar deyil, bir çox dini cərəyanlar da aparır və onların arasında ekstremist və radikal xarakterliləri də az deyil.

Bu cür hərəkatların mövcudluğu haqda çox deyilib, bununla əlaqədar dövlətin qanunlarına uyğun olan və onların

fəaliyyətlərinin Konstitusiya çərçivəsində həyata keçirilməsi istiqamətində tədbirlər də görülüb.

Həmişə olduğu kimi, hakimiyyət onun istədiyindən fərqli etiqad edənlərə qarşı sərt tədbir və qadağaların tərəfdarı deyil. Lazımi məhdudiyyətlər müvafiq şəraitə adekvat olmalı, hüquq çərçivəsindən kənara çıxmamalıdır.

Hakimiyyət öz həmişəki rəyində qalır. Onun fikrincə, din siyasətdən kənar qalmalı, din xadimləri isə Konstitusiya və ölkənin qüvvədə olan qanunvericiliyinin müddəalarına əməl etməlidirlər.

Azərbaycan vətəndaşlarının etiqad hüququ var: bu, dövlətin Əsas Qanunu ilə təmin olunub. Qanunvericilik vasitəs ilə hansısa bir dini cərəyanın qadağan olunmasına hökuməti vadar etmək istəyən və onu artıq dərəcədə demokratiklikdə ittiham edən şəxslər isə bizim yaxın keçmişimizi, bütün dini cərəyanlara qadağa qoyulan və dinlərin – «mövhumat qalıqlarının» əleyhinə 70 ildən artıq məqsədyönlü mübarizə aparan SSRİ tarixinin faktlarını unudurlar. Tarixin sonrakı gedişatı və nəticələr isə artıq hamıya məlumdur.

Bundan başqa, daha yeni nümunələr də mövcuddur: 1999-cu ildə Dağıstan Dövlət Şurası sədrinin qərarı ilə vəhhabilik, dini bir cərəyan olaraq, adı çəkilmiş qonşu ölkədə qanundan kənar elan edilmişdir. Radikal vəhhabilər gizli iş fəaliyyətinə keçdilər, lakin bu, onların cəmiyyətə göstərdiyi təsiri heç də azaltmadı. Rəqəmlər bunu bir daha sübut edir: sovet hakimiyyəti zamanı Qafqazın ən islamlaşdırılmış regionu olan Dağıstanın 12 rayonu və 4 şəhərində yalnız 27 məscid fəaliyyət göstərirdi. 1994-cü ilin sonunda isə burada artıq 720 məscid, 8 islam ali təhsil ocağı və 111 mədrəsə mövcud idi. 2000-ci ilin nəticələrinə əsasən isə, Dağıstanda artıq 1.594 məscid var idi. Hal-hazırda bu ölkədə 2.150 məscid və 438 təhsil ocağı (onlardan 17-si 45 filialı olan islam institutlarıdır) mövcuddur. Burada 5.000 nəfərdən artıq

insan ali təhsil alır; islam təhsil ocaqlarında 15.000 tələbə oxuyur.

Məscidlərin sayına görə bu ölkə təkcə Rusiya Federasiyasının ənənəvi islam subyektləri olan Tatarıstan və Başqırdıstanı deyil, hətta onlardan əhalinin sayına görə müqayisəedilməz dərəcədə böyük olan Özbəkistan və Azərbaycanı da ötüb keçdi. Bundan başqa bir faktı da nəzərə almaq lazımdır ki, Dağıstan əhalisinin sayı hazırda 2,5 milyon nəfər təşkil edir.

Beləliklə, qadağa və inzibatçılıq vasitəsi ilə ciddi din problemlərinin həlli istiqamətində aparılan səylər bu cür qeyri-qənaətbəxş nəticələrə gətirə bilər.

Buna görə də Azərbaycan hakimiyyətinin dövlət və din əlaqələrinə bu cür prinsipial yanaşması bir çox KİV-lərin nəzərdə tutduqlarından əsaslı şəkildə fərqlənir. Dövlət öz vətəndaşları üçün hər bir insanın istənilən dinə etiqad etmək imkanı olan dini icma yaratmağı və azad şəkildə din seçməyi təmin edən dini etiqad haqqında qanun çərçivəsində normal şərait yaratmağa borcludur.

Əlbəttə, bu, heç vaxt hədsiz azadlıq kimi qəbul edilməməlidir. Azadlığın istənilən forması, o cümlədən dini azadlıq dövlətdə qüvvədə olan və çərçivəsindən kənara çıxmağa heç kəsə icazə verilməyən qanunlarla məhdudlaşdırılır. Dini təşkilatlarla əlaqə qurduqda hakimiyyət məhz bu prinsipial yanaşmaya əsaslanır.

Bununla əlaqədar olaraq qeyd etmək istərdim ki, hökumətə təkidlə bu və ya digər dini hərəkatın fəaliyyətini qanunvericilik səviyyəsində dayandırmağı təklif edən və öz fikirlərini bu cərəyanların dindən siyasi məqsədlə istifadə etmək cəhdlərinə və ya bir sıra protestant hərəkatlarının Azərbaycanı xristianlaşdırmaq meyllərinə əsaslandıran bəzi jurnalistlər öz üzərlərinə çox böyük məsuliyyət götürürlər.

Bununla yanaşı, onlar hakimiyyəti dini hərəkatlara və cərəyanlara qarşı olan artıq dərəcədə «demokratikliyə» görə

tənqid edir, insanların dini etiqad azadlığı hüququna malik olduqlarını unudurlar, halbuki, etiqad hüququ insanın başlıca hüququ olan yaşamaq hüququndan sonra ən vacibi sayılır. Məhz buna görə də bu cür «narahatçılıq», təəssüflər olsun, daha çox belə məqalələrin müəlliflərinin məsələnin mahiyyətini və haqqında yazdıqları hakimiyyətin siyasətini səthi bilməsi ilə bağlıdır.

Lakin ölkəmizdə radikal dini cərəyanların təsirinin yayılması problemi çoxdan mövcuddur. Bu, bir çox sosial-iqtisadi, siyasi və geosiyasi xarakterli amillərlə bağlıdır. Bu qəliz və çoxsahəli prosesin məruz qaldığı xarici təsirə gəldikdə isə, mənə elə gəlir ki, o, yalnız neqativ aspektdə olsa da, heç də böyük əhəmiyyət kəsb etmir.

Nə qədər qəribə səslənsə də, bu gün dini ideyaların ən əsas cazibəsi dinin özündə deyil, başqa növ məfkurələrin, o cümlədən də liberal, sosial-demokratik, milli məzmun kəsb edən ideyaların uğursuz təbliğindədir. Ola bilər ki, siyasətçilərin çoxunun insanların əhval-ruhiyyəsinə təsir imkanları artıq tükənib və onlar xalqın rifahının tez bir zamanda yaxşılaşdırılması, milli sərvətin ədalətlə bölüşdürülməsi, demokratiyanın qərb modelinə uyğun qurulması, işsizlik və yoxsulluğun aradan qaldırılması, işğal edilmiş torpaqların qaytarılması probleminin tezliklə həlli və sair bu kimi əsassız vədlərlə insanları öz tərəflərinə cəlb edə bilmirlər.

Onlara yalnız bir şey etmək – Tanrının iradəsinə ümid bağlamaq qalır. Məlumdur ki, Həqq-təalanın təmiz niyyətli insanlardan xoşu gəlir və O, hamını həm niyyətlərinə, həm də əməllərinə görə qiymətləndirir.

**Siyasi hədəfə çatmaq məqsədi ilə dinə əl atan şəxslər Allahın köməyinə ümid bağlaya bilməzlər.**

Hamımız Müqəddəs Kitablardan bilirik ki, adi insanlardan fərqli olaraq, Allah hər şeyi bilir; Onu bir partiyadan o birinə keçmək və ya mömin insanlar tərəfindən başa düşülmək şansı kimi hər hansı yeni blokların yaradılması ilə

aldatmaq olmaz. Bir çox siyasətçilərin hərəkətlərinə qaldıqda isə, onlar heç sadəlövh insanları belə aldada bilmirlər. **Burada bir el məsəlini misal gətirmək yerinə düşərdi: «Etibar qəndə bənzəyir – islanmışı daha ucuzdur»**.

Buna görə də yığılmış problemləri dini postulatlarla həll etməyi düşünmək sadəlövhlükdür və uzunmüddətli perspektivi olmayan bir məsələdir. Belə niyyət yəqin ki, «birdəfəliyə» istiqamətlənib və liberalizm, demokratizm və dünyəvilik çaları ilə elan edilir. Dini ehkamlar əslən liberalizm və əməllərin tam azadlığına yönəlməyib. Bütün dinlər mühafizəkardır və məhz buna görə də onlar əsrlər boyu mövcuddurlar. Görünür ki, bu tarixi həqiqət liberallar tərəfindən öz siyasi məqsədlərinə çatmaqda vasitələrin seçimi zamanı nəzərə alınmır.

Buna baxmayaraq, bu gün biz həqiqi dini sərvətlərin saxta siyasi düşkünlüklə əvəz olunduğunun şahidi oluruq. Nəticədə isə cəmiyyət özü uduzur, çünki o, nəinki siyasətçilər və ya din xadimlərinə, hətta Allahın özünə olan inamını itirə bilər və bu da onun küfr edən siyasətçilərə qarşı həddən artıq dözümlülüyündən irəli gəlir.

Din adından danışmaq və Səmavi kitabların mənəvi-əxlaqi dəyərlərini siyasi xəritəyə yerləşdirmək ən azı siyasi əxlaqsızlıqdır: mənim buna heç bir şübhəm yoxdur. Siyasətin mənası, yəni siyasətçilərin «fərdi» dinlərinin olması özü-özlüyündə dinin ilahi məzmununa ziddir.

Bu «siyasi dinin» mahiyyəti ilahilikdə deyil, dünya məsələlərinə yaxınlıqda, yəni daha çox mənəvi yox, fiziki tələbatlardadır. Ona görə də vaxtı ilə orta əsrlərin dahi adamları siyasəti dindən ayırmaqla düzgün hərəkət ediblər. Cəmiyyətin sonrakı inkişaf yolunu təyin edən həmin addım bu gün də öz əhəmiyyətini itirməyib.

Bunun nəticəsində hakimiyyətə aparan yolu cəmiyyətdə mövcud olan ictimai əxlaqa uyğun başqa üsullarla axtarmaq,

hakimiyyətdən heç də az əhəmiyyət kəsb etməyən dini isə ruha saxlamaq lazımdır.

# AZƏRBAYCANDA İMAN MƏDƏNİYYƏTİ

*İnsanın Allaha qarşı olan inamı onun qəlbinə daxil olmalı, şüurunda formalaşmalı və hərəkətlərində aşkar olunmalıdır*

Bir çox lüğət və fəlsəfi əsərlərdə biz «mədəniyyət» anlayışının müxtəlif təriflərinə rast gəlirik. Əvvəllər «böyütmək», «yetişdirmək» mənalarını daşıyan latın sözü «cultura», orta əsrlərdə «şəhər həyat tərzi», daha sonra isə tədricən «şəxsi kamillik əlaməti» anlamına çevrildi. Mədəniyyət bizi məhz bu anlamda maraqlandırır, çünki yalnız bu baxımdan, əxlaq mədəniyyəti və iman mədəniyyəti haqda söhbət açmaq olar.

Azərbaycanda iman mədəniyyəti, demək olar ki, tədqiq edilməmiş bir sahədir. Sovet hakimiyyəti dövründə Azərbaycan filosoflarının çoxu bu haqda danışmağı lazım bilməyiblər: o zaman hamı tərəfindən qəbul olunmuş tədqiqat metodologiyasına əsasən hesab olunurdu ki, dinin mədəniyyətsizlik sayılan cəhalət, mövhumat və yalanlarla sıx əlaqədə öyrənilməsi daha çox sovet cəmiyyəti ideologiyasının «sosial sifarişinə» uyğundur. Dövlətin həyata keçirdiyi din əleyhinə siyasət nəticəsində Azərbaycanda ənənəvi həyat tərzi, mənəvi-əxlaqi islam normaları və dəyər meyarları qismən unudulmuşdur. Eyni zamanda, sosializm vətəndaşların şüurunda uzun müddət möhkəmlənə biləcək yeni dəyərlər təklif etsə də, onları həyata keçirmədi.

Ənənəvi islam dəyərlərini itirən insanlar nəsildən-nəslə keçəcək yenilərini tamamilə mənimsəyə bilmədilər. Bu cür qeyri-standart, «mənəvi çərçivədən kənar» şəraitdə cə-

miyyətimiz sərbəst sosial inkişaf yoluna qədəm qoydu və yeni ictimai-siyasi, mədəni-iqtisadi formasiyaya keçid mərhələsinə başladı.

Azadlıq və yenidənqurmanın qısa dövründə cəmiyyət xaricdən daxil olan müxtəlif ideyalar üçün açılmış, həm dinə, həm də bütöv dünyagörüşü sistemi olan mədəni miras və dini dəyərlərə maraq artmışdı. Qəribə olsa da, bu öz növbəsində ölkə vətəndaşlarının davranışında müəyyən qeyri-müəyyənlik və məntiqsizliyə də gətirib çıxardı: faktiki olaraq hər bir fərd müxtəlif anlayışların mövcudluğu üzündən çaşıb qalır, çox vaxt bir şey fikirləşib, başqa cür hərəkət etməyə məcbur olur, oxşar vəziyyətlərdə adekvat olmayan rəftar etməyə başlayırdı.

Beləliklə, əməllər və şüur arasında təbii ziddiyyət yarandı, yəni daha sadə dildə desək, ruh və ağıl müvazinətsizliyi özünü daha kəskin büruzə verməyə başladı və psixoloji disbalans yarandı. Belə durumda cəmiyyətdə mənəviyyatla bağlı sualların araşdırılması aktuallığı daha da artdı. Bununla əlaqədar olaraq, nəinki iman mədəniyyəti, həm də onun təzahür formalarının əsas əlamət və meyarlarının tədqiqi çox böyük əhəmiyyət kəsb edir. Bu problemə aid bütün məsələlərin düzgün başa düşülməsi müasir Azərbaycan cəmiyyətində şəxsiyyətlərarası və dövlət-din münasibətlərinin düzgün qurulması üçün çox vacibdir. Mənə elə gəlir ki, bu məsələ həmçinin ailələrdə, məktəblərdə və respublikanın ali təhsil ocaqlarında həyata keçirilən tərbiyəvi proseslər zamanı nəzərə alınmalıdır.

Bəs iman mədəniyyəti özü-özlüyündə nə deməkdir?

Bu suala cavab verməzdən əvvəl biz başqa bir suala cavab tapmalıyıq: sosial statusuna uyğun olaraq həmin bu mədəniyyəti təqdim və təbliğ etməyi öz üzərinə götürmüş din adamlarında iman mədəniyyəti nə səviyyədədir? Yəqin ki, birinci növbədə tərbiyəçi özü tərbiyəli olmalıdır. Belə olduğu

halda, bəs ölkəmizdə mənəvi «rəhbərlərin» tərbiyəsi zamanın tələblərinə uyğundurmu?

Əlbəttə, bu sualı araşdırdıqda mən iman mədəniyyətinin aşağı səviyyədə olmasının məsuliyyətini heç də yalnız din xadimlərinin öhdəsinə qoymaq niyyətində deyiləm. Fərdin, sosial qrupun, dini icmanın və nəhayət, bütün cəmiyyətin iman mədəniyyətinə görə biz hamımız cavabdehik. Lakin bu məsuliyyət, sözsüz ki, birinci növbədə din xadimlərinin, keşiş, axund və məscid imamlarının üzərinə düşür: heç olmasa ona görə ki, etiqad edən və ya dindən uzaq olan insanların hər biri özündən asılı olmayaraq iman mədəniyyəti çərçivəsində nümunəvi, lazımi və layiqli rəftar örnəklərini məhz din xadimlərindən gözləyirlər.

Şübhəsiz, müstəqillik illəri ərzində cəmiyyətimizdə din sahəsində peşəkar biliklərin səviyyəsi artıb; daha doğrusu, indi sovet dövründən fərqli olaraq, din adından danışan insanlar öz hərəkətləri ilə ateist ideologiyasını gücləndirmirlər. Əksinə: dini təhsil aldıqdan sonra onlar insanlara dini müxtəlif dövlətlər və ali təhsil ocaqlarında yiyələndikləri elmi və yaxud heç olmasa, elmə yaxın olan bilikləri insanlara çatdırmağa səy göstərirlər, lakin lazımi dini təhsilin olmaması onların imkanlarını xeyli məhdudlaşdırır.

Hətta, bu halda belə müəyyən təhlükə var: birincisi, din adından çıxış edənlər elə hesab edirlər ki, onlar bütün suallardan baş çıxarırlar və insan həyatında yaranan problemləri dini norma və qaydaların əsasında həll etməyə hazırdırlar. İkincisi, çox vaxt dini, ümumiyyətlə, mədəniyyətdən ayırırlar: peşəkar din xadimləri elə hesab edirlər ki, din özü-özlüyündə mədəniyyətdir, hər bir din xadimi isə həmin mədəniyyətin təmsilçisidir. Bu cür yanaşma dinin mədəniyyətə ehtiyacı olmaması haqda səhv fikir yaradır. Belə yanlış fikirlər dini bilikləri özünəməxsusluqdan məhrum edir və bu zaman həmin bilik formasının genişliyini müəyyən edən sərhədlər pozulur, halbuki, islam əsasən bu kimi hədsizliyi sevmir: «Yol verilən-

lərin həddini aşmayın. Həqiqətən, Allah yolunu azanları sevmir» (Əl-Bəqərə surəsi, 190).

Bununla belə, iman mədəniyyətinin əsas problemi etiqad edənin özünü dərk etməsidir. Müdrik insanlar demişkən: «Özünü dərk et – Tanrını dərk edərsən». İnsanın özünü və onu əhatə edən dünyanı dərk etməsinə tələbat öz əksini ilk növbədə dində tapıb. Real dünyanın müxtəlif dini təsəvvürləri (yəhudilik, xristianlıq, islam, buddizm, konfusiçilik, brəhmənizm, zərdüştlük və s.) insanın ağıl və ruhunun buna olan tələbatını təmin etmək cəhdləri nəticəsində əmələ gəlmişdir. Bundan başqa, yeni bir sual da yaranır: həmin özünüdərketmənin təzahür formaları nədir? O, həqiqi özünüdərketmədir, yoxsa təkəbbürdür, «özgə» nə varsa, hamısının inkarıdır? İslam dini təkəbbürü də xoşlamır: «İndi əbədi qalacağınız cəhənnəmin qapılarından girin! Təkəbbürlənənlərin yeri necə də pisdir!» («Əl-Ğafur» surəsi, 76). Deməli, əgər dinə xas olmayan mövhumat, dözümsüzlük, ekstremizm və terrorçuluq hər bir tərzdə pislənilirsə, onda dinin başa düşülməməsi, ona qarşı qorxu və əsəbilik də mədəniyyətin olmaması kimi qiymətləndirilməlidir. Belə ki, baş örtüyünün istifadəsi islam mədəniyyətində kök salmış qədim ənənədir, qadının azad və toxunmaz olduğunu bildirir. Baş örtüyünü taxıb - taxmamaq hər bir qadının öz şəxsi işi hesab olunmalıdır. «Çadranı rədd edək!» şüarı altında çıxış edərək qadının başından yaylığı zorla çıxarmaq və bunun da adını tərəqqi qoymaq və ya əksinə, qadını örpək geyinməyə məcbur etmək də din mədəniyyəti elementlərinin olmaması deməkdir.

Mənim fikrimcə, iman mədəniyyətinin əsas və birinci əlaməti insanın ümumi mədəniyyət səviyyəsi sayılmalıdır. Mən ailədə, ibtidai məktəbdə formalaşan və düzgün yazıb oxumaq, fikirləri dəqiq ifadə etmək bacarığından başlayan elementar mədəniyyəti nəzərdə tuturam. Bu gün din adından çıxış edənlərin bir çoxunun məhz bu keyfiyyətləri yoxdur. Bu insanlar nitq söyləyəndə onların hansı regiondan, dinin hansı

təriqət və məzhəbinə məxsus olduqlarını, harada təhsil aldıqlarını anlamaq heç də çətin olmur. Bununla yanaşı, Azərbaycanda iman mədəniyyəti Azərbaycan dilində gözəl danışmaq və Allahın buyurduqlarını düzgün, həqiqi mənanı təhrif etmədən çatdırmağı tələb edir. Belə elementar mədəniyyətin olmadığı təqdirdə iman mədəniyyəti və ümumiyyətlə, din haqda danışmaq olmaz.

Mədəniyyətin klassik təzahürlərindən biri də əxlaqdır, buna görə də din və əxlaqın qarşılıqlı münasibəti məsələsinin öyrənilməsi iman mədəniyyətinin düzgün başa düşülməsinə yardımçı ola bilər. Mömin insanın əxlaq haqda təsəvvürü, davranışı və hərəkətləri bir növ onun dünyaya olan münasibətinin ölçüləri sayıla bilər.

**İslamda elə hesab olunur ki, Allaha inam birinci növbədə insanın dilində, sözündə özünü göstərir – ilk olaraq insan tək-allahlılıq şəhadətini söyləyir, sonra inam onun qəlbinə daxil olur, daha sonra isə o, möhkəm imana çevrilir və nəhayət, onun hərəkətlərində aşkar olunur. Bu, böyük və fədakar məhəbbət formuludur və bu da insanın insana qarşı deyil, Allaha olan məhəbbətidir**. Əgər belə saf, şüurlu iman insanın hərəkətlərində meydana çıxmırsa, həmin adamın iman mədəniyyəti haqqında danışmaq mənasızdır. Əgər molla ehsan verən insandan bacardığı qədər çox pul almağa çalışırsa və namaz vaxtının yaxınlaşmasını bəhanə gətirib məclisi tez tərk etməyə can atırsa, belə yığıncaqlar nəinki dini, həm də öz tərbiyəvi əhəmiyyətini itirir: axı, ehsan ölülər üçün deyil, canlı insanlar üçün təşkil olunur.

Ümumiyyətlə, bizim üçün ənənəvi və adət halını almış ehsanlar ölkəmizdə iman mədəniyyətinin olduqca aşağı səviyyədə olduğuna dəlalət edir. İslamda «ehsan» anlayışı yoxdur. Yas mərasimləri haqda söhbət açılanda akademik Ziya Bünyadov deyirdi: «Ölmüş insan üçün «Allah rəhmət eləsin!» deyərək dua etməyin. Əgər o, həyatı boyu Tanrının

rəhmini qazanıbsa, bu sözlərlə siz Allahın iradəsinə qarşı çıxış etmiş olursunuz». Bu ifadə problemin əsas mahiyyətini bütünlüklə əks etdirməsə belə, özündə müəyyən obyektiv məna daşıyır.

İslam insanların biri-birilərinin dərdlərinə şərik olmalarını dəstəkləyir, lakin bunun ölənin yaxınlarına quru başsağlığı vermək üçün camaatın ehsana gəlib, sonra isə əllərində papiros, müxtəlif dünyəvi işlər haqda söhbət etmələri ilə heç bir əlaqəsi yoxdur. İslam dinində dərdə şərik olmaq rəhmətə gedənin yaxınlarına dəfndən əvvəl göstərilən maddi və mənəvi yardım mənasını daşıyır.

Din xadimlərimizin iman mədəniyyəti və onların sovet hakimiyyəti dövründə dəfn və bir sıra başqa mərasimlərlə bağlı bəzi qadağalardan irəli gələn maddi maraq meylləri islamın həqiqi dəfn adətlərinin bərpasına və bu sahənin cəmiyyət və dövlət tərəfindən nəzarətinə mane olur. Məsələn, həyat tərzinin yaxşılaşması ehsanlarda təklif olunan menyunun zənginləşməsinə səbəb olur: məclis boyu «kədərlənən» mollaların və onların «başçılarının» dinməz razılığı ilə masalar üzərinə yeni-yeni yeməklər düzülür. Beləliklə, toylarımıza xas olan israfçılıq tədricən ehsanlara da keçir, halbuki, islam dini bu cür halları pisləyir: «…israf etməyin! Allah israf edənləri dost tutmaz» («Əl-Ənam» surəsi, 141).

İman mədəniyyəti insandan onun həqiqi, dərin mənasını anlamağı tələb edir. Allaha qarşı məhəbbət insanın qəlbinə daxil olub, onun şüurunda həkk olunmalıdır. Yəqin ki, bu, yalnız özlərini mömin hesab edən insanların hərəkətləri, niyyətləri və yer üzərində bütün varlıqlara olan münasibətlərinə görə cavab verəcəklərinə inandıqları zaman baş verə bilər.

Bütün deyilənlərin yekununda bəzi nəticələr çıxarmaq olar:

**- insanın Allahla, nəfsi və onu əhatə edən dünya ilə qarşılıqlı münasibətlərinin tam qapalı bir sistemi olaraq,**

**iman mədəniyyəti illər boyu formalaşır və fərdin ümumi mədəni səviyyəsinin bir qismini təşkil edir;**

**- din xadimi yalnız o təqdirdə iman mədəniyyətini təmsil edə bilər ki, onun inamı qəlbi və şüurundan keçərək, hərəkətlərində aşkar olunsun və sözləri ilə hərəkətləri vəhdət təşkil etsin;**

**- bu gün biz yalnız belə bir iman mədəniyyətinin Azərbaycanda formalaşmağa başlaması haqqında danışa bilərik; bu prosesin gedişatı isə bizim cəmiyyətin həqiqi imanı dini mövhumat, dini ekstremizm laylarından və hər növ dözümsüzlükdən fərqləndirmək bacarığından asılıdır.**

Mən əminəm ki, yalnız güclü dövlət və effektiv, təsirli idarəetmə vətəndaşlara düzgün seçim, iman və əqidəni qoruyub saxlamaq, din və demokratiyanın, ənənəvi və liberal dəyərlərin bir-birini tamamlayaraq paralel inkişaf etmək imkanı əldə etmiş cəmiyyətin həmahəng inkişafı üçün normal şərait yarada bilər. Yalnız o təqdirdə biz ölkəmizdə mövcud olan müasir zəngin mədəniyyətin əsasını təşkil edən etiqad azadlığı, demokratiya və qanunun ahəngi haqda haqqında danışa bilərik.

## BİZ DÜZGÜN ETİQAD EDİRİKMİ?

*Dünya tarixi daha çox dinlər tarixidir. Hər kəs özünün Allahı dərk etmə səviyyəsinə uyğun olaraq etiqad edir*

Bu gün bütün dünya dinlərin sürətlə yayılmasının və eləcə də aralarındakı münasibətlərin arabir açıq qarşıdurmaya keçdiyi təriqətçi hərəkatların inkişaf və artımının şahididir.

Qərbi Avropa ölkələri və ABŞ-dan olan ayrı-ayrı dinşünas ekspertlər dünya ictimaiyyətinin diqqətini tez-tez ona yönəldirlər ki, guya bu kimi dini canlanmanın səbəbi radikal islam fundamentalizmidir və bununla əlaqədar olaraq islamçılara və ümumilikdə islama qarşı qlobal mübarizəyə keçməyə çağırırlar. Təəssüflər olsun ki, onlar bir faktı nəzərə almır və ya nəzərə almaq istəmirlər ki, özlərinin uydurma antiterror əməliyyatları, o cümlədən onların fikrinə görə nədənsə adətən islamla əlaqələndirilən dünya terrorizminə qarşı silahlı mübarizə vasitəsilə daha çox yalnız islam və xristianlığın deyil, eləcə də müxtəlif növ destruktiv dini təriqət və icmaların da geniş yayılmasına şərait yaradılır. Beləliklə, gördüyümüz kimi, son zamanlar dini zəmində dünya qarşıdurması haqqında danışaraq, mahiyyət etibarilə müxtəlif siyasi layihələr həyata keçirilir. Artıq dəb halını almış həmin mədəniyyətlərarası münaqişənin başlanması üçün obyektiv şəraitin yaradılması prosesi süni surətdə tezləşdirilir. Bu cür obyektiv şəraitə uyğun ölçülüb-biçilməyən, əsas etibarilə son səmavi din olan İslamın tərəfdarlarına qarşı yönəlmiş hərə-

kətlər, gözlənilən nəticələri vermir. Müsəlmanlar öz gələcəklərini vəd edilmiş qərb demokratiyasında deyil, öz tarixi köklərinə, yəni islamın mənəvi-əxlaqi dəyərlərinə və yerli adət-ənənələrlə sıx «bağlı olan» əsaslara qayıtmaqda görür. Bu onlarda özünümühafizə və özünümüdafiə hisslərini daha da gücləndirir.

Lakin bildiyimiz kimi, belə qarşıdurma və dinlərarası müharibələr bəşər tarixində artıq bir neçə dəfə baş verib. Eramızın əvvəllərindən bəri, demək olar ki, ağırlıq dərəcəsindən asılı olmayaraq heç bir müharibə dinin iştirakı olmadan baş verməyib, onların əksəriyyəti isə yalnız dini xarakter daşıyıb. Ona görə də qərb xəyalpərəstlərinin fikrincə, Üçüncü dünya müharibəsinə çevrilə bilən və hətta, çevrilməli olan dinlərarası qarşıdurmanın yaxınlaşması daha mükəmməl silah növlərindən, o cümlədən də görkəmli alimlər, təbiətin ən gözəl əsəri olan insanlar tərəfindən yaradılmış kütləvi qırğın silahlarından istifadə etməklə tarixdə baş vermiş qanlı müharibələrin ssenarilərinin bütün dünya miqyasında təkrarından başqa bir şey deyildir. Elm və texnika dahiləri, təəssüflər olsun ki, öz yüksək zehni qabiliyyətlərini nəinki bütün Yer kürəsini məhv edəcək, hətta Kainatın özünü lərzəyə salacaq silahların yaradılmasına yönəldiblər. Belə təsəvvür yaranır ki, insan yalnız bir-birini məhv etməkdə yarışaraq yeni silah növlərini yaratmaq üçün dünyaya gəlir. Bəşər övladı yarandığı ilk gündən bir-biri ilə ölüm-dirim mübarizəsinə girişir.

Problemin belə sadə, lakin ilk baxışda olduqca məntiqli qoyuluşu zamanı bir çox qəliz məsələlər yenə də cavabsız qalır. Nə etməli? Bu gün bütün eşitdiklərimiz və gördüklərimizə necə reaksiya verməliyik? Bu nədir: doğrudan da, vaxtilə fərsiz Nostradamusun qabaqcadan xəbər verdiyi, indi isə müasir siyasi «gələcəyi görənlərin» bizə artıq real fakt kimi sübut etməyə çalışdıqları dünyanın sonunun başlanğıcıdırmı? Yoxsa, papaqlarımızı qarşımıza qoyub, dünyanın müxtəlif ölkələrindən olan «mədəni» insanların bizim hamımızı belə

«mehribancasına» hara itələdikləri haqqında fikirləşməliyik? Görəsən, onların nəyi əskikdir və onlar nə istəyirlər? Bəlkə, kimsə Makedoniyalı İskəndər, Yuli Sezar və nəhayət, Vladimir İlyiç və ya Adolf Hitlerin «qəhrəmanlıqlarını» təkrarlamaq istəyir? Axı, bu insanların tərcümeyi-halı və ən əsası, onları birləşdirən bütün dünyanı idarə etmək ideyası artıq hamıya məlumdur. Belə ki, onlar çox ağır uğursuzluğa düçar olublar.

Hər zaman xalqlara sonsuz sayda bəlalar gətirən xəyallar gec-tez bu ideyaların «yaradıcıları» üçün acınacaqlı sonluqla nəticələnib.

Dünya tarixi daha çox dinlər tarixidir. Buna görə də biz hesab edirik ki, hal-hazırda dünyanı idarə etmək istəyənlər (tək, yaxud kollektiv surətdə – bu, artıq xırdalıqlardır), hər halda, mömin insanlardır. Nəticə etibarilə, onlar artıq çoxdan anlamalı idilər ki, dünyanı təkcə dünyəvi təsəvvürlü qüvvələr idarə etmir. Çoxəsrlik tarixi və həyat təcrübəsi qəti surətdə göstərir ki, nəinki qonşularla, həmçinin qüdrətli Tanrılarla da dostcasına yaşamaq lazımdır: bu, bizi narahat edən bütün suallara ən təbii və sadə cavab olardı. Lakin Allah ilə dostcasına yaşamaq üçün, ən azından, öz qonşun ilə dost olmaq və başqasının malına qəsd etməmək lazımdır. Başqasının malına göz dikməklə bədbəxtlik arasındakı yol isə çox qısadır və dünyanın bütün düşüncəli, vicdanlı vətəndaşları bunu yaxşı bilir.

Bu gün tarix bizə nəinki müxtəlif dinlərin tərəfdarları arasında, eləcə də ayrılıqda götürülmüş bir etiqad daxilində baş verən mürəkkəb qarşılıqlı münasibət proseslərini daha yaxşı dərk edib, anlatmaq üçün lazımdır. Buna görə də vətəndaşlarımızın bəzən müxtəlif dinlərin tərəfdarları arasında ədavətə çevrilən ziddiyyətləri etiqadların mövcud olması həqiqəti kimi dərk etməsi vacibdir. Buna sakit və səbirlə yanaşmaq və həmin münaqişələrin daha yüksək səviyyəyə qalxmasına yol verməmək lazımdır.

Deyilənlərdən belə aydın olur ki, ziddiyyətlər məhz dinin öz strukturu daxilindədir. Bir Müqəddəs Kitabı və bir peyğəmbəri olan insanlar Allah Kəlamının mahiyyətini müxtəlif cür başa düşür, öz peyğəmbərlərinin hərəkətlərini, hətta, onun sağlığında müzakirə və şərh edirdilər. İncilin müxtəlif variantları (Luqa (Luka), Yuhənna (İoann), Mata (Matfey) və s.), eləcə də İslamda müxtəlif hüquq məktəbləri və cərəyanları bu səbəbdən yaranmışdır. Ona görə də bir çox alimlər belə hesab edirlər ki, dindaxili ziddiyyətlər, inanılmaz olsa da, ilk başlanğıcdan bu və ya digər dinin təsirinin saxlanılması və yayılmasının əsas amili olub. Gördüyümüz kimi, mürəkkəb məsələlərin həlli də məhz buradadır. Təriqətçilik nəyə görə meydana gəlib? Nə üçün hətta bir dinin tərəfdarları da bəzən biri-birilərinə bu qədər nifrət və şübhə ilə yanaşırlar?

Biz başa düşürük ki, bu olduqca mürəkkəb, mənəvi-əxlaqi və psixoloji suallara yalnız səmavi və dünyəvi dinlərin tarixindən bəlli olan real faktların sadalanması ilə cavab vermək qeyri-mümkündür, baxmayaraq ki, belə misallar təsəvvür etdiyimizdən də çoxdur. Lakin bizi narahat edən bu deyil.

Eramızın iki minilliyinin tarixi hadisə və faktları bir mənada bizi əmin edir ki, dinlər, əslində, yalnız onların hər birinin tərəfdarlarının Allaha müxtəlif cür etiqad etdiklərinə görə mövcuddur. Əsas nəticə: əgər hamı eyni cür etiqad etsəydi, (bu da öz-özlüyündə qeyri-mümkündür), o zaman ümumiyyətlə, heç bir din uzun müddət yaşamazdı: onda «din» anlayışının özü olmazdı. Xristianlıq tarixi buna ən parlaq nümunədir: pravoslavlıq və katoliklik, protestantlıq və yüzlərlə müxtəlif istiqamətlərə parçalanan təriqətlər, eləcə də din və etiqad təcrübəsinin onlarla forması. Əgər buna hətta üç əsas konfessiya arasında tez-tez müşahidə edilən barışmazlıq faktlarını da əlavə etsək, İsa peyğəmbər və onun 12 həva-

risinin zamanında mövcud olan ilkin xristianlığın etiqad təcrübəsindən indi nə qaldığını təsəvvür etmək mümkündür.

Bu cür mürəkkəb mənzərəni digər səmavi və dünyəvi dinlərdə də müşahidə etmək olar: etiqadın mahiyyətinin hər cür şəraitdə əvvəlki kimi dəyişməz qalmasına baxmayaraq, Allaha imanın forma və üsulları bir-birindən çox fərqlənir. Buna görə də hər bir mömin Uca Tanrıya aparan yolu, təəssüf ki, müxtəlif cür təsəvvür edir, yəni hər kəs öz istədiyi kimi və əsas etibarilə yanlış etiqad edir. Bu yanlışlıq isə, gördüyümüz kimi, dinlərin saxlanmasına və yayılmasına lazımi şərait yaradır. Beləliklə, tam obyektiv olaraq müxtəlif konfessiyalar, denominasiyalar, təriqətlər və mömin qrupları meydana gəlir.

**Din etiqadın xüsusi formasıdır və hər kəs özünün Allahı dərk etmə səviyyəsinə uyğun olaraq düşünür və etiqad edir.** Yəqin ki, dünyada peyğəmbərlər və Allahın elçiləri eyni olmadığı kimi, eyni cür etiqad edənlər də yoxdur. Onların hamısı bir-birindən fərqlənirdi, baxmayaraq ki, Allahın təkliyinə inanır və öz tərəfdarlarını da tək Allaha inanmağa çağırırdılar.

Beləliklə, bir fikirlə razılaşmaq olar ki, dini şüurun bir nəsildən başqasına keçməsi adətən müxtəlif etiqad formalarının yaranması nəticəsində baş verir; bu zaman hər kəsin Allaha aparan ən qısa və ən asan yolu tapmaq imkanı olur. Mömin insana müxtəlif variantlar – Yerdə ədaləti bərpa etmək və kafirləri, yəni bizim düşündüyümüz kimi, düzgün etiqad etməyənləri (onlar isə olduqca çoxdurlar) cəzalandırmaq üçün İsa peyğəmbərin və ya imam Mehdinin ikinci gəlişini gözləmək də daxil olmaqla, onlarla müxtəlif variantlar təklif olunur. Çoxluq haradadırsa, orada da onların qaydaları və fikirləri irəli sürülür. Deməli, insanlar gələcəkdə də əvvəllər adət etdikləri kimi yanlış etiqad edəcəklər. Başlıcası odur ki, bu, başqalarına Allaha öz istədikləri kimi etiqad etməkdə mane olmasın!

# II FƏSİL

## DİN, CƏMİYYƏT VƏ HAKİMİYYƏT

### (Əxlaq – din, Demokratiya – cəmiyyət, Hüquq – hakimiyyətdir)

# DİN VƏ HAKİMİYYƏTİN QARŞILIQLI MÜNASİBƏTLƏRİ

*Ölkədə qanun birdir, dinlər isə çox. Əsas Qanun yalnız dinin əksəriyyət üçün universal olan dəyərlərini nəzərə ala bilər*

Tarixdən məlumdur ki, indiki suveren Azərbaycanın ərazisində çoxlu dinlər mövcud olub. Zərdüştlük (atəşpərəstlik) onlardan ən qədimi hesab olunur. Atəşpərəstlərin məbədi bu gün də ziyarətçiləri qəbul edir. Azərbaycan ərazisində Alban xristian kilsələrinin tarixi kökləri eramızın IV əsrinin başlanğıcına gedib çıxır. Rusiya pravoslav sinodu tərəfindən 1836-cı ildə (Azərbaycan Rusiya İmperiyasının tərkibində olduğu zaman) ləğv edilməsinə baxmayaraq, Alban Xristian Kilsəsi inşa edilmiş bəzi məbədləri qoruyub saxlaya bilib. Bu gün Azərbaycan ərazisində üç belə kilsə bərpa edilir və milli sərvət kimi qorunur. Bu yaxınlarda dövlətin səyləri nəticəsində alban-udin kilsəsi bərpa olunub və Azərbaycanın Alban-udin xristian icması qeydiyyata alınıb. Ölkəmizin tarixi çox müharibələrin şahidi olub, lakin biz hər zaman fəxr hissi ilə qeyd edirik ki, onların heç birinin əsasında din amili durmayıb.

Məlumdur ki, dinlər mənəviyyatın əsasını təşkil edir. Biz hesab edirik ki, cəmiyyətin normal fəaliyyət göstərməsi üçün şərait yalnız dövlətin bütün ali hakimiyyətə sahib olduğu, ictimai-siyasi və dini təşkilatların isə açıq hakimiyyət institutlarına müsbət təsir göstərmək imkanına malik olduğu vaxt yarana bilər. Qanun cəmiyyətin normal inkişafını dövlətin icraedici strukturlarının fəaliyyətinə, eləcə də cəmiyyətdə

hökm sürən, əsasən din mənşəli mənəvi-əxlaqi prinsiplərə və adət-ənənələrə istinad edərək təmin edir. Dövlət cəmiyyətin həm sosial-iqtisadi, həm də mənəvi sahələrini tənzimləyir. Onlar, təəccüblü olsa da, sıx qarşılıqlı əlaqədədirlər. Buna görə də o, bütün dinlərin fəaliyyəti üçün eyni şərait yaratmalıdır. Dinlər və konfessiyalar arasındakı tolerantlıq və dözümlülüyün əsası bundan ibarətdir.

Hamımız bilirik ki, qanunlar yalnız hüquqların qorunması və müdafiə olunmasına deyil, eləcə də insana təbiətən xas olan bir sıra azadlıqların müəyyən dərəcədə məhdudlaşdırılmasına yönəlib. Bu, normal hal hesab olunur. Yəhudi, xristian, islam və başqa dinlərin Müqəddəs Kitabları da icazələrdən daha çox qadağaları əks etdirir. Bu səbəbdən də həqiqi dindar adamlar dövlətləri tərəfindən qəbul edilmiş qanunları qəbul etməli və onlara hörmətlə yanaşmalıdırlar.

Bizim vəzifəmiz isə ən sadə şəkildə mömin və mömin olmayan insanlara yalnız mənəviyyata əsaslanan güclü hakimiyyətin cəmiyyətdə azadlığı təmin edərək, dinin özünü, etiqad və əqidə azadlığını qoruya biləcəyini aydınlaşdırmaqdan ibarətdir. Buna görə də hakimiyyət və dini strukturların vəzifələri bir çox məqamlarda üst-üstə düşür.

**Ölkədə əsas qanun birdir, dinlər isə çox. Bu səbəbdən də, qanun hər bir dinin bütün məqam və incəliklərini nəzərə ala bilməz: o yalnız universal ümumbəşəri dəyərləri nəzərə alaraq və bunun əsasında da inam və əqidəni hər bir insanın şəxsi işi kimi onun öhdəsinə buraxaraq, möminlərlə münasibətlərini qura bilər.**

Son 15 il ərzində Azərbaycanda hakimiyyət dini praktika üçün maksimum şərait yaratmağa çalışır. 2003-cü il mart ayının ortalarında Bakıda Qafqazda ən böyük sinaqoq və Azərbaycanın pravoslav xristianlarının baş Kafedral kilsəsinin təntənəli açılış mərasimi keçirilib. Azərbaycanda katoliklərin sayının az olmasına baxmayaraq, 2008-ci ilin mart ayında Bakıda Katolik kilsəsi istifadəyə verilib. Necə deyər-

lər, tarixi ədalətsizlik bərpa olunub (1930-cu ildə katolik kilsəsi bolşeviklər tərəfindən dağıdılmışdı). Hər üç məbədin tikintisində həm müsəlmanlar, həm də xristianlar iştirak edib. Onlar maliyyə yardımı göstərməklə yanaşı, tikinti prosesində bilavasitə iştirak ediblər. Rus pravoslav yeparxiyasının 1907-ci ildə azərbaycanlı milyonçu Zeynalabdin Tağıyev tərəfindən inşa edilmiş Kafedral kilsəsi təxminən yüz il keçdikdən sonra müsəlman olan digər bir şəxs – iş adamı L. Qurbanov tərəfindən tam bərpa edilib.

Azərbaycan Demokratik Respublikası (1918-1920-ci illər) Şərqin müsəlman dövlətləri arasında bütün din və əqidələrin qanun qarşısında bərabər hesab olunduğu və dinin dövlətdən ayrıldığı ilk dünyəvi respublika olub. Əhalisi müsəlman olan ölkələrdə bu, birinci belə hadisə idi. Beləliklə, müsəlman aləmində tarixi nümunə, din-dövlət münasibətləri modeli yaradıldı.

Bu gün həmin ənənəni Azərbaycan Respublikası davam etdirir. Bu hüquq bərabərliyi Konstitusiyada təsbit olunub və ölkəmizdə dini müxtəlifliyin mövcudluğunu nümayiş etdirir. Bu zaman hakimiyyət ciddi şəkildə dinin dövlətdən ayrılması prinsipini əsas tutur. Doğrudur, bu, bizim hakimiyyətin yalnız siyasi-ideoloji xarakterini müəyyənləşdirir. Əxlaq və mənəviyyat meyarları, o cümlədən də milli-mənəvi dəyərlər din ilə sıx bağlıdır və həmçinin hakimiyyətin xarakterinə müəyyən təsir göstərir.

Müasir demokratik cəmiyyətdə din və dünyəvi dövlətin dinc şəkildə birgə yaşaması modelini formalaşdırmaq lazımdır. Dövlət bu ideyanı həyata keçirməyə və ondan həm dinin özü, həm də cəmiyyət üçün xeyir əldə etməyə çalışır. Yəqin elə buna görə də müntəzəm olaraq müxtəlif dini icmaları cəlb etməklə, tədbirlər təşkil edilir: beynəlxalq konfranslar, beynəlxalq müşavirələr, seminarlar, «dəyirmi masalar» və s.. Qeyd edilməlidir ki, nadir istisnaları çıxmaq şərtilə, bütün bu görüşlər olduqca faydalıdır.

Eyni zamanda, qeyd etmək istərdik ki, son zamanlar din başqa məqsədlər, xüsusilə, terror və ekstremizm üçün də istifadə olunur. Buna görə də din və əqidə azadlığından danışarkən biz həm Şərq və həm də Qərb tarixində dini şüarlar pərdəsi altında qanlı müharibələr aparan bir çox dini liderlərin mənfi rolunu da unutmamalıyıq. Elə bu günün özündə də dünyanın müxtəlif nöqtələrində müharibələr aparmaq və qanlı münaqişələri qızışdırmaq məqsədilə insanların dini əqidələrinin istismar olunmasına dair çoxlu sayda misal gətirmək olar. İnsanların əqidələrinə hörmət etməklə yanaşı, biz hərdən onları əsaslı şəkildə şübhə altına almalıyıq. Heç də bütün əqidələr, o cümlədən də dini əqidələr təmiz olmur və xeyir naminə xidmət etmir. Əminəm ki, xəyali dini şüarlar altında tamamilə günahsız insanları həyatdan məhrum edən terror aktları, yalnız təhrif olunmuş dini əqidəyə malik insanlar tərəfindən törədilir. Cəmiyyət yaxşı əqidələri pislərdən fərqləndirməyi bacarmalıdır. Biz dinin təmizliyinin tərəfdarıyıq, biz dövlətin öz vətəndaşlarına dinlər haqqında daha çox məlumat verərək, onlara dini maarifçilik və düzgün etiqad seçimində yardımçı olmasının tərəfdarıyıq. Bunu həm məktəblərdə, həm də ali təhsil ocaqlarında həyata keçirmək mümkündür. Göstərilən sahədə kütləvi informasiya vasitələri də öz rolunu oynaya bilər və oynamalıdır. Bu bütövlükdə cəmiyyətin və hər birimizin işidir.

# BİRGƏ MÖVCUDLUĞUN ƏSAS PRİNSİPLƏRİ

*Dövlət qanunun aliliyi, qanunun mahiyyəti isə əxlaq və mənəviyyatdır. İdealda belə olmalıdır*

«Din və dövlət» münasibəti ideologiya (inam) və hakimiyyətin çox zəif müvazinəti üzərində qurulmuş idarəetmə sisteminin möhkəmliyinin mühüm elementidir. Bu çətin həll edilə bilən məsələ bütün bəşəriyyəti narahat edir və dünya vətəndaşlarının taleyinə təsir göstərə bilir. Başqa sözlə, bu problem, əsas etibarilə, insan əqidələri və onun konkret əməlləri arasındakı əlaqə süzgəcindən keçir.

Bir çox insanlar demokratik cəmiyyətdə dinin və əqidənin rolu arasında fərq qoymamaqla səhvə yol verirlər. Çox vaxt insanlar bu iki məfhumun mahiyyətinə varmır və ola bilsin ki, belə yanaşma nəticəsində terrorizm, ekstremizm, din və əqidə kimi anlayışlar və eləcə də onlar arasındakı qarşılıqlı əlaqə nəinki sadə vətəndaşlar, həmçinin çoxdan bəri bu sahə ilə məşğul olan şəxslər üçün də qaranlıq qalır. İnsanlar bilməməzlikləri üzündən çox vaxt əqidə azadlığını din və etiqad azadlığı ilə səhv salırlar.

Əqidə azadlığı bir çox beynəlxalq müqavilə, konvensiya, qərar və qətnamələrdə əsas insan haqlarından biri kimi qəbul olunub və demək olar ki, o, bütün dünya dövlətlərinin, o cümlədən də Azərbaycanın Konstitusiyasında öz əksini tapıb.

Lakin biz bir faktı da nəzərə almalıyıq ki, insanın əqidəsi yalnız din ilə məhdudlaşmır. Əqidə azadlığının özü, əsas eti-

barilə, qanunlarla tənzimlənir və ölkə qanunvericiliyi çərçivəsində həyata keçirilir.

Tarixə bir qədər nəzər salsaq, biz əmin ola bilərik ki, insanların əqidələri, o cümlədən də dini, çox zaman onların əməlləri ilə ziddiyyət təşkil edib. Cəmiyyətdə olduğu kimi, ailədə də əqidə məsələləri çox vaxt bəzi çətinliklərin və münaqişə vəziyyətlərinin yaranması üçün ilkin amil olur.

Dəhşətli müharibələr, faciəli münaqişələr, dünya xəritəsinin dəfələrlə dəyişdirilməsi, imperiyaların qurulması və süqutu qədim zamanlardan başlayaraq ta bu günümüzədək heç də həmişə yalnız insanların hakimiyyətə can atması səbəbindən baş verməyib. Əqidələr və çox zaman dini əqidələr bu amansız və mənasız mübarizənin tərkib hissəsi olub. Tarixi faktlar göstərir ki, din naminə və ya din pərdəsi altında aparılan müharibələr zamanı I və II Dünya müharibəsində olduğundan heç də az qan tökülməyib.

Qüdsün bütpərəstlər tərəfindən dağıdılması, xristianlığın yayılması nəticəsində IV əsrin sonu – V əsrin başlanğıcında Roma imperiyasının süqutu, xaç yürüşləri, müsəlman istilaları, orta əsr inkvizisiyası, eləcə də bilavasitə dinlə bağlı digər məşhur hadisə və faktlar bir daha sübut edir ki, din kimi formalaşan əqidələr cəmiyyətdə uğur və üstünlüyü heç də həmişə sülh yolu ilə əldə etməyib və hakimiyyət naminə çox vaxt güc və silaha əl atıb.

Söhbət dinin ilahi mahiyyətindən deyil, bu mahiyyətin dərki və cəmiyyətdə din praktikasına müxtəlif yanaşmalardan gedir.

2001-ci il 11 sentyabrdan dərhal sonra terroru və ümumiyyətlə, terrorizmi din ilə əlaqələndirməyə başlayan çoxlu insan peyda oldu. Təəssüflər olsun ki, islamı terror dini adlandıranlar da tapıldı. Bu faciəli hadisələrdən bir neçə il keçib, ancaq heç kim cürət göstərib din, dini əqidələr ilə belə miqyaslı terror arasında əlaqənin mövcudluğu məsələsinə aydınlıq gətirmək istəmir. Bəziləri bir qədər ehtiyatla dinin

terror və ekstremizm ilə əlaqəsinə işarə edir, digərləri isə dini əqidələr, terror və ekstremizm arasında hansısa bir əlaqənin olmamasını sübut etmək və bununla da dinin özünü və heç də həmişə sırf dini məsələlərlə məşğul olmayan dini təşkilatları sığortalamağa cəhd göstərirlər. Bu təşkilatlar arasında, əlbəttə ki, öz bank hesablarından terror aktlarını təşkil edənlərə gizli maliyyə vəsaiti ayırmaqla terrorizmdə əli olanlar da vardır. Bu, təbii ki, başqa bir söhbətin mövzusudur. İndi biz tamamilə ayrı şey haqqında danışırıq.

Bildiyimiz kimi, din və əqidə mücərrəd məfhumlar deyildir. Terroristlər, ekstremistlər və din uğrunda həyatlarını qurban verən insanlar da «virtual» subyektlər olmurlar. Əlbəttə, ki, onlar dini, milliyyəti və vətəndaşlığı olan konkret şəxslərdir.

Əgər biz XX əsrdə və ya son 50 ildə baş vermiş hadisələri, heç olmasa, ötəri şəkildə təhlil etsək, əmin ola bilərik ki, bugünkü müharibə və münaqişələrin «ideoloji» və «siyasi» çalarlar almasında din amilinin rolu şübhəsizdir.

Son illərin hadisələri, xüsusilə də İsrail-Fələstin qarşıdurması, Olsterdə katolik və protestantların uzunmüddətli qarşıdurmaları, birinci və ikinci çeçen müharibələri və nəhayət, Azərbaycan ərazisinin 20 faizinin işğal edilməsi bütün deyilənlərə konkret məna verir.

Çoxsaylı insan qurbanları ilə müşayiət olunan bu müharibə və münaqişələr din amilinin təsirinə məruz qalır, onların bəzilərində isə din və dini təşkilatlar ideoloji dəstək rolunu oynayır. Məsələn, erməni apostol kilsəsi sözdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll edilməsinin tərəfdarıdır. Lakin o, indiyə kimi bu münaqişənin Ermənistanın işğalçı siyasətinin nəticəsi olduğunu qəbul etməyib. Azərbaycanın ərazi bütövlüyünü həmişə Dağlıq Qarabağsız qələmə verməyə çalışıb. 1988-1989-cu illərdə erməni kilsəsi Qarabağ ermənilərinin separatçı ideyalarını dəstəkləyib.

Buna görə də demokratik cəmiyyətdə dinin rolunu nəzərdən keçirdikdə dünyəvi dinlərin və Müqəddəs Kitabların ilkin sülhsevər xarakterinə diqqət yetirmək və bununla yanaşı, dinlə məşğul olan insanların fəaliyyətinə demokratik və vətəndaş cəmiyyətinin qanunları, dini liderlərin böyük nüfuzunun olması baxımından yanaşmaq və cəmiyyətdə onların rolunu və vəzifəsini müəyyən etmək lazımdır.

Bu vəzifə, ən azından, demokratik cəmiyyətdə məlum səbəblərdən hakimiyyət tərəfindən din xadimlərinə verilən imtiyazlara uyğun reaksiya olmalıdır. Bu imtiyazlar, hətta, beynəlxalq və yerli qanunvericilik tərəfindən təmin edilən vətəndaş hüquqlarında da mövcuddur.

Bu gün cəmiyyətdə baş verən prosesləri təhlil etdikdə aydın olur ki, insan haqları və azadlıqlarının, o cümlədən onun etiqad azadlığının müdafiəsi və tam şəkildə təmin edilməsi üçün demokratik cəmiyyətin güclü hakimiyyət və effektiv idarə edilməyə ehtiyacı var. Bu qəbul olunmuş qaydaya Avropa və Amerikada demokratiyanın yaradıcıları da riayət edirdilər.

**Cəmiyyət üçün vacib olan bu iki amil insanların əxlaq və əqidələri ilə bilavasitə bağlıdır.**

Oxucuları çox zaman müzakirə mövzusuna çevrilən dövlət (hakimiyyət) və din (inam) problemlərinə dair öz fikir və mülahizələrimlə tanış etmək istərdim.

1. **Əminəm ki, dini ekstremizmlə mübarizə zamanı ön sıralarda tanklar, toplar və qırıcı təyyarələr deyil, vətəndaşları olduqları demokratik cəmiyyətin bütövlüyünü qoruyub saxlamaq naminə özündə cəsarət tapıb «mənəvi cihad» edə biləcək həqiqi din xadimləri və nüfuzlu dini liderlər durmalıdır**. Bu mübarizədə «din dövlətdən ayrıdır» kimi rəsmi anlayış arxa plana keçməli və cəmiyyət ümumi səylər nəticəsində ekstremizm və terror kimi dəhşətli xəstəlikdən azad edilməlidir. Bu birgə fəaliyyətin ölçüləri olduqca dəqiq və anlaşıqlı olmalıdır. Din, dini lider və dini təşkilatlar öz fəaliyyətləri hesabına dövlət

öz fəaliyyətləri hesabına dövlət hakimiyyətinin möhkəmlənməsinə şərait yaratmalıdırlar, çünki güclü hakimiyyət əqidə və etiqad azadlığını tam şəkildə təmin etmək üçün geniş imkanlara malikdir.

Bu cür sıx əməkdaşlıq hansısa bir tərəfin hüquq, imtiyaz və səlahiyyətlərinin artıb və ya azalmasına səbəb olmamalıdır. O, ümumi sülh naminə birgə mübarizənin xüsusi forması kimi qəbul olunmalıdır.

2. **Mənim fikrimcə, dini zəmində ekstremizm və terrorizmlə mübarizənin əsas tərkib hissələrindən biri də düzgün dini maarifləndirmədir.** Cəmiyyət dinə dair məlumat çatışmazlığı hiss etməməlidir. Lakin din özü əhalinin məlumatlandırılmasının birinci və yeganə mənbəyinə çevrilməməlidir. Eyni zamanda, din haqqında məlumat insanlara təkcə din xadimlərindən deyil, başqa mənbələrdən də gəlməlidir. Dövlət belə lazımi məlumatı verməlidir. Bu, ümumilikdə, dini fanatizmə meyli zəiflədər və təqdim olunan məlumatın qərəzsizliyini təmin edər.

Dinə həddən artıq fanatikcəsinə bağlı olan şəxslərin inzibati qaydada təqib olunması və onlara ikinci dərəcəli vətəndaş kimi yanaşma insanlarda, xüsusilə də gənclərdə «romantik inqilabçı» ruhunu tərbiyə edən gizli dini fəaliyyətə təhrik edə bilər. Bu isə sağlam imicə malik olan istənilən cəmiyyətdə terror və ekstremizmin inkişafında başlıca rol oynaya bilər.

3. **Dövlət və din cəmiyyətin iki mühüm tərkib hissəsidir. Birinci, qanunun aliliyini, ikinci isə qanunun mahiyyətini: əxlaq və mənəviyyatı nəzərdə tutur**. Hakimiyyət, əxlaq və mənəviyyat – həqiqətdə bu məfhumlar cəmiyyətin həyatında bir-birini tamamlayır. Başqa sözlə, əxlaqi və mənəvi meyarların nəticəsi olan hakimiyyət və onun qəbul etdiyi dünyəvi xarakterli qanunlar birlikdə cəmiyyətdə əhəmiyyətli rol oynayır.

Qanun əxlaq və mənəviyyatı müdafiə etməlidir. Tarix göstərir ki, hakimiyyət dinlə müqayisədə dəyişkən xarakterə malikdir və o, daimi deyil, əxlaq və mənəviyyatdan məhrum olmuş istənilən hakimiyyət ölkə vətəndaşlarının tam əksəriyyəti üçün öz mahiyyətini itirir. Əxlaq isə ənənəvi olaraq dini dəyərlər hesabına qidalanır. Beləliklə**, dövlət və dinin bir-birinə ehtiyacı var, onlar bir-birinə lazımdırlar. Lakin bu, yalnız muxtar birgə mövcudluq şəraitində baş verməlidir**. Tarix bunun əksini sübut edən inandırıcı amil və ya uğurlu təcrübəyə malik deyil. Burada ən başlıca məsələ həll olunur. Siyasətin əxlaq və mənəviyyatdan məhrum olmaması, onun dünyəvi dinlərin həqiqi mahiyyətini saxlamağa imkan yaratması və dinin cəmiyyətdə sosial münasibətlərin tənzimləyicisi rolunu oynamaqda dövlətə mane olmaması təmin edilməlidir. Dinin sosial statusunun müəyyən edilməsi üçün bu muxtar birgə mövcudluq necə olmalıdır?

4. **Demokratik əsasda qurulmuş cəmiyyətdə dövlət bütün din və əqidələr üçün bərabər şərait yaratmalıdır. Dövlət hansısa bir dinin inkişafı ilə məşğul olmamalıdır.** Zənnimcə, uzunmüddətli dinlərarası dialoqun uğursuz nəticələnməsinin başlıca səbəblərindən biri məhz dinlərin imtiyazlı, ənənəvi, qeyri-ənənəvi və destruktiv kimi təqdim edilməsi və bu əsasda onlarla qarşılıqlı münasibətlərin qurulmasıdır. Əgər söhbət əqidədən gedirsə, onda bizi onun sağlam olub-olmaması, cəmiyyət üçün faydalı və ya zərərli olması maraqlandırmalıdır. Əgər zərərli əqidə din forması alarsa, onda o, cəmiyyət tərəfindən ciddi müqavimətə rast gəlməli və dövlət də buna yardımçı olmalıdır. Əqidənin din pərdəsi altında yayılan zərərli forması ilə mübarizəni etiqad azadlığını pozmaq kimi qiymətləndirmək olmaz. Təəssüflər olsun ki, bir sıra beynəlxalq təşkilatlar bu məsələyə məhz bu cür yanaşır. **Cəmiyyətdə müxtəlif din və ideologiyalara**

**etiqad edən vətəndaşlar üçün yeganə ümumi qanun dövlətin konstitusiyasıdır.**

Din və din xadimləri üçün insanın mənəviyyatı və dini görüşlər, əlbəttə ki, başlıca fəaliyyət sahəsidir. Din xadimləri və dini liderlər siyasətə qoşulmamaq şərtilə, yüksək əxlaqlı və mənəvi cəhətdən saf insanları tərbiyə edərək, öz müqəddəs vəzifələrini yerinə yetirə və bununla da dövlətə yardımçı ola bilərlər. İfrat dini fanatizmin ekstremizm və terrorizmə çevrilməsinə mane olmaqla, onlar cəmiyyətə böyük fayda verə bilərlər. Mənim fikrimcə, bunu müasir demokratik cəmiyyətdə din və dövlət arasındakı münasibətlərdə muxtar birgə mövcudluğun ən optimal forması hesab etmək olar və bu münasibətlər, zənnimcə, məhz bu fundamental əsasda qurulmalıdır.

## BEYNƏLXALQ SÜLH VƏ İBADƏT GÜNÜ

*21 iyun 2003-cü il tarixində Bakıda «Din və demokratiya: nəzəriyyə və tarixi təcrübə» adlı Beynəlxalq konfrans keçirildi*

Oxucularla məhz 2003-cü ilin həmin günündə diqqətimi cəlb edən ideya və fikirlərlə bölüşmək istərdim. Məlumdur ki, Birləşmiş Millətlər Təşkilatı hər ilin 21 iyun tarixini Beynəlxalq sülh və ibadət günü elan edib. Bilmirəm, bu təsadüfdür ya yox, amma üç il bundan əvvəl, məhz 2001-ci il iyun ayının 21-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 512 saylı Fərmanı ilə Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi yaradılıb.

Konfransın başlamasından altı ay əvvəl biz heç düşünmürdük ki, belə xoş təsadüflər ola bilər. Biz həftənin birinci gününü – bazar ertəsini üstün tutduq. Təbii ki, cümə, şənbə və ya bazar günlərini də seçə bilərdik, lakin bu günlər islam, xristianlıq və yəhudi tərəfdarları üçün xüsusi əhəmiyyət kəsb etdiyindən, biz fikirləşdik ki, hər bir mömin bu günlərdə öz məscid, kilsə və ya sinaqoqunda olmalıdır və elmi konfransa görə onlardan bunu etməməyi xahiş etmək günah olardı.

Beləliklə, biz bazar ertəsini – bir çox cəhətdən hamı üçün rahat və möminlər üçün müqəddəs olan ibadət, yəni Allah ilə ünsiyyət günündən uzaq bir günü seçdik.

Buna görə də üç mühüm hadisənin bir günə təsadüf etməsi bir daha bizdə belə bir fikir yaradır ki, təkcə Yaradan deyil, eləcə də bizim yer üzərində, cəmiyyətdə qarşılıqlı münasibətlərimizi tənzimləyən və bizim üçün görünməz olan

xüsusi bir mexanizm və Allah-təalanın onları əxlaq və sevgi ilə dolu etmək arzusu mövcuddur.

«Din və demokratiya: nəzəriyyə və tarixi təcrübə» mövzusunda konfransın keçirilməsi yalnız bu gün çox böyük əhəmiyyət kəsb edən din, fəlsəfə və siyasət nöqteyi-nəzərindən deyil, həmçinin həyatımızın, mövcudluğumuzun bu iki olduqca mühüm ünsürünün qarşılıqlı təsirinin vacibliyi baxımından da mühümdür.

Hər birimiz insanların qəlbində hər zaman imanı olduğunu və onun hər bir insanın həyatında həmişəlik qala biləcəyini bir fakt olaraq anlayır və qəbul edirik. Ancaq bu gün ölkə və xalqların tam əksəriyyəti yalnız qəlblərindəki inamla deyil, eləcə də insanlar tərəfindən qəbul edilmiş, lakin bəzən sərt dini qaydalara tam şəkildə uyğun olmayan demokratiya qanunları əsasında yaşayır. Bununla belə, məhz bu qanunlar, demək olar ki, hamı üçün nisbətən bərabər birgə yaşayış və normal əmək şəraiti yaradır, seçim, söz, hərəkət azadlıqlarının dəyişməzliyini təmin və müdafiə edir, ümumiyyətlə, milliyyət və etiqadından asılı olmayaraq, cəmiyyətin üzvləri arasında qarşılıqlı münasibətləri tənzimləyir.

**Artıq dinin demokratiyadan daha qədim olduğu haqda ümumi bir fikir formalaşıb. Dinin qanun və ehkamları dəyişməzdir və yeni ictimai-siyasi şəraitə uyğun olaraq, islah edilməməlidir. İnsanlar nə qədər istəsələr də, onlara İlahi Qanunlarda dəyişiklik etmək ixtiyarı verilməyib.**

Demokratiya qanunları isə vaxtaşırı dəyişib təkmilləşiblər, bu da onun mahiyyətindən irəli gəlir və daimi xarakter daşıyır. Mənə elə gəlir ki, demokratik prinsiplər səmavi dinlərdən daha əvvəl meydana gəlib. Onlar Yer kürəsində ilk insanların yarandığı zaman artıq ibtidai formada mövcud olublar. Qəbilə başçısının seçimi hələ ənənəvi, yəni səmavi olmayan dinlərin mövcud olduğu zamanlar da həyata keçirilib. Əlbəttə, dinlərin və bizim üçün adi anlayış olan «demok-

ratiyanın» nə vaxt meydana gəldiyi bu gün o qədər də əhəmiyyətli deyil. Əsas odur ki, onlar bu gün var və bizim mövcudluğumuz real sütunlarıdır. Buna görə də **din və demokratiyanın qarşılıqlı münasibətləri bu gün sadə məsələ deyil. Məhz onlar son nəticədə hər bir xalqın, dövlətin və ümumilikdə dünyanın həyat qabiliyyətini müəyyən edirlər.**

Bu gün sivilizasiya, mədəniyyət və dinlərin qlobal qarşıdurmasının yaxınlaşması haqqında çoxlu söhbətlər gəzir. Düşünürəm ki, bu, problemin mahiyyətindən xeyli kənara çıxmaq deməkdir. Hər şey din və demokratiyanın birgə mövcud olması imkanından asılıdır. Bilirəm, din xadimləri dinin özünün ən yaxşı demokratiya olduğunu deyəcəklər, xüsusən də ona görə ki, o, Yer kürəsindəki insanlar arasında sülh və əmin-amanlıq yaratmaq üçün Allah tərəfindən göndərilib. Mübahisə etmirəm. Din əsrlərlə möminlərin həyat və davranışlarını nizamlayıb. Burada bəzən nə vaxt və necə hərəkət etməyin lazım olduğunu təfsilatı ilə tapa bilərik; onda icazə verilmiş və qadağan olunmuş hər bir şey haqda dəqiq məlumat verilir. Elə görünə bilər ki, demokratiya məfhumu, ümumiyyətlə, artıqdır. Belə olduğu halda o, nəyə lazımdır?

Demokratiya tərəfdarları bir qədər başqa cür deyəcəklər: dinlər çoxdur, qanun isə adətən birdir. İndiki dövrdə xalqlar və dövlətlər arasındakı münasibətləri yalnız dinin müddəaları ilə tənzimləmək qeyri-mümkündür. Hamı üçün eyni və ədalətli olan və ən azı beş dünyəvi din tərəfdarları tərəfindən qəbul olunan universal dini müddəalar hələ ki yoxdur. Dinşünas-alimlər və ali dini liderlər yüzilliklər boyu nə qədər çalışsalar da, hələ də Yer kürəsinin 6 milyardlıq əhalisini qane edə bilən dini meyarlar tapa bilməyiblər.

**Demokratiya prinsipləri daha universaldır və onları inamın olub-olmamasından asılı olmayaraq, insan haqlarını ciddi şəkildə məhdudlaşdırmadan tətbiq etmək mümkündür. Dinlərdə, təəssüf ki, bu, mümkün deyil.**

**Orada dözümlülük dəqiq sərhədlərə malikdir. «Qırmızı xətt» xaricində insanı möminlər mühitindən kənarda qoyan küfr mühiti başlayır: əslində, o kəslərin bütün dini ehkamlar prinsipində bərabər olmaq hüququ yoxdur.**

Ancaq bu, din və demokratiya ixtilaflarının ola bilsin ki, yüzüncü görünməyən tərəfidir, lakin xalq və dövlətlər üçün onların hər ikisi gərəklidir – həm din, həm də demokratiya. Prinsip etibarilə, dünya birliyinin bu iki real qüvvələrini qarşı-qarşıya qoymağa ehtiyac yoxdur, amma buna baxmayaraq, 2000-ci ildən etibarən bir sıra siyasətçi və din xadimlərinin din və demoktariyanın, yəni ikisindən birinin dünyanın taleyi üçün daha vacib olduğunu iddia edərək, onların ayrı-ayrılıqda mövcud olması üçün real yollar tapmaq cəhdləri artıb.

Bu, həm siyasətçiləri, həm dini liderləri və eləcə də bəşəriyyətin özünü çıxılmaz vəziyyət qoyub.

Nəticədə, biz bu gün əldə etdiyimizə malikik. Fikrimcə, yanlış olan bu qarşıdurmanın real məhvedici nəticələri haqqında isə danışmayacağam. Onlar bu gün hamıya bəllidir. Bunun əksinin, yəni cəmiyyətdə ümumi sülh və əmin-amanlığın bərqərar olması üçün din və demokratiyanın sıx qarşılıqlı əlaqəsinin mümkünlüyünü qeyd etmək istərdim.

**Dinin icazə verdiyindən kənara çıxaraq, mən onların birliyini cisim və ruhun birliyi, vəhdəti ilə müqayisə edərdim. Real həyatda onlardan biri olmasa, o birisi öz əhəmiyyətini itirər. Mənəviyyatsız demokratiya uçuruma məhkumdur: bunu, demək olar ki, hamı bilir. Din demokratiya və müasir demokratik təsisatlar olmadan bizim üçün sülh və əmin-amanlığı təmin etmək iqtidarında deyil**.

Bəs onda problem nədədir? Müharibələr, zorakılıq, terror və gələcək qarşısında qorxu haradan yaranır? Bütün bunları, əlbəttə, daha möhkəm mənəvi oriyentirlərin olmaması, demokratiyanın mahiyyətinin mütəmadi olaraq deformasi-

yaya uğraması və ya bunların hər ikisinin paralel inkişafı ilə də izah etmək olar.

Əgər bu fikri qəbul etsək, onda bütün dünya məhvə məhkumdur, lakin mənə elə gəlir ki, bizim belə bir variantın real olduğunu düşünməyə haqqımız yoxdur.

Güman edirəm ki, bunun səbəbi mövzunun adının ikinci hissəsində – nəzəriyyə və tarixi təcrübə arasındakı ziddiyyətdədir. Bu, eyni dərəcədə həm dinə, həm də demokratiyaya aiddir. **Bu gün biz, təəssüflər olsun ki, istər dini ehkamlar, istərsə də demokratik prinsiplər əsasında qurulmuş az-çox ideal bir dövlətin mövcud olmaması faktını etiraf etmək məcburiyyətindəyik.**

Bununla belə, bu gün həm Avropa, həm də Şərq ölkələrində tarixi təcrübə mövcuddur: bu, öz mahiyyəti və tərkibinə görə bir-birinə tamamilə zidd olan mütləq (monarxiya) və demokratik hakimiyyətin uzunmüddətli dinc şəkildə yanaşı yaşamasıdır. Buna aid misallar çoxdur. Bu, din və demokratiya arasındakı bir çox ziddiyyətlərin aradan qaldırılması yollarının axtarılması üçün əlavə imkan verir.

Bu gün, bildiyiniz kimi, mən ancaq sualın qoyulma tərzini qeyd edə bilərəm: bizim bütün dünya üçün faciəvi nəticələrə gətirib çıxara biləcək təhlükənin neytrallaşdırılmasına yönələn tədbirlərimiz necə olmalıdır? Hesab edirəm ki, belə bir təhlükənin mövcud olması – heç olmasa, son beş ildə baş vermiş hadisələrin inkişafını nəzərə alsaq – heç kimdə şübhə yaratmır. **Demokratiya və din xadimlərinin ibadətlərinin qüdrətinə baxmayaraq, dünya bu gün çox ciddi təhlükə ilə qarşılaşıb və həyəcan təbili artıq çalınıb.** Tarix bizə öyrədir ki, bina, bir qayda olaraq, iki halda dağılır: bünövrə möhkəm olmadıqda və ya insanlar Allahı qəzəbləndirdikdə. Biz həyatın göstərdiyi kimi dinc yaşamaq üçün hər iki halda düzgün hərəkət etməliyik, yəni, demokratiya prinsiplərinin təməlini möhkəm qoymalı və təbii ki, səmavi qüvvələrin qəzəb hədəfinə çevrilməməliyik. Buna görə

də din – ilahi qərarların toplusu və demokratiya – Allahın yaratdığı ən yaxşı məxluqlar tərəfindən düşünülmüş yaşayış üsulu kimi, ayrı-ayrı xalq və ölkələr üçün deyil, eyni dərəcədə hamı üçün çalışmalıdır. O zaman nağıldakı kimi olar: Allahın əmri və insanın istəyi ilə.

# İMAN VƏ HAKİMİYYƏT BALANSI

*Hər bir əmlak şüurun bəhrəsidir. Şüura malik olduqda əmlaka da yiyələnmək mümkün olur*

Bu bölmədə söhbət inamları arzu etdikləri gələcək hakimiyyətin ideologiyasına çevrilmiş dini hərəkatlardan gedəcək. Şüura, sosial əxlaqa ümumi təsir etmək xüsusiyyətinə və hakimiyyəti ələ alıb cəmiyyəti idarə etmək bacarığına malik olan adamların hazırlanması, əlbəttə, çox mürəkkəb məsələdir. Hakimiyyətlə bağlı məsələnin belə qoyulması və həllinə cəhd ən azı iyirmi il vaxt tələb edir. Bu vaxt ərzində dini intellektuallar öz zərif süzgəcindən bir neçə yüz, hətta min gənci keçirməlidir. Hakimiyyəti əldə edib uzun müddət saxlamaq, qəbul edilmiş qərarları yerinə yetirmək üçün bu, zəruri bir mərhələdir. Bu yolla formalaşdırılmış təbəqə üçün hakimiyyət əldə etmək son məqsəd deyil. Ən əsası, elə etmək lazımdır ki, hakimiyyət özü tədricən onlara demokratik yolla keçsin. Güman edilir ki, yüzlərlə yaxşı hazırlanmış dini intellektual, doğrudan da, bu hakimiyyəti əldə saxlaya biləcək. Türkdilli xalqlar və dövlətlər məkanında belə hərəkatlardan birini nurçular – keçən əsr dünyasını dəyişən Səid Nursinin tərəfdarları təmsil edirlər. O öz hərəkatının əsasını qoyub və uzun müddət Türkiyə həbsxanalarında saxlanılıb. Hazırda onun işini Vaşinqtonda mühacir kimi yaşayan və heç də müəllimindən az tanınmayan Fətullah Gülən uğurla davam etdirir. Türkiyə hökuməti hələ 30 il bundan qabaq onun düşüncə tərzini və planlarını xoşlamayıb. İndi vəziyyətin necə

olduğunu isə bilmək çətindir. Bununla belə, onun «xoşbəxt cəmiyyət» naminə elm və dinin sintezinə yönəlmiş ideyaları Azərbaycanda kifayət qədər tərəfdar toplayıb – bizdə onlar 1992-ci ildən meydana çıxmağa başlayıblar. Artıq 15 ildir ki, Fətullah Gülənin ideyaları yüksək səviyyəli təhsil və intellektə malik ağıllı gənclərimiz tərəfindən istifadə olunur. Onlara bütün media və maarifçilik layihələrini maliyyələşdirən F. Gülənin Azərbaycan tərəfi ilə sıx əməkdaşlıq yaradan tərəfdarları təhsil verir. Onun liseylərinin şagirdləri artıq cəmiyyətin gözəçarpan hissəsinə çevriliblər. Onları özlüyündə hakimiyyət deyil, uzun zaman fərdlər üzərində hökmranlıq etmək imkanı qazanmaq, insanları Səid Nursi ideyalarının təsiri altında saxlamaq prosesi maraqlandırır. **Hökmranlığın özü ideyaların hegemonluğu olmadan, mahiyyət etirabilə, cəmiyyəti qanunların köməyi ilə idarə etmək vasitəsi kimi müvəqqəti və keçici hesab olunur. Ən əsası, insanları onlar üçün həyat normasına, vacib mövcudiyyət atributuna çevrilmiş ideyalar vasitəsilə idarə etmək lazımdır.** Şərqdə bu cür idarə üsulu hər zaman cəmiyyət və hakimiyyət başında duranlar tərəfindən tələb olunub. O, bu gün də çox böyük əhəmiyyət kəsb edir, lakin ən başlıcası odur ki, belə bir məqsədə çatmaq mümkündür – İranın və bir sıra müsəlman ölkələrinin nümunəsi bizə bu haqda danışmağa tam əsas verir. Yaxud, misal üçün, məgər bugünkü Britaniyanı mütləqiyyət (monarxiya) ideyaları olmadan təsəvvür etmək mümkündürmü? Bu haqda düşünmək özü belə hər bir həqiqi ingilis üçün təhqiredicidir. Bu kimi dövlətlər Avropanın özündə də olduqca çoxdur. Belə hakimiyyət forması əsrlərdir ki mövcuddur və başlıcası, o özünü doğruldur. Bu ölkələrdəki toplumda alternativ ideyalara tələbat minimaldır. Belə bir fikrə ingilislər, hollandlar və isveçlilər deyil, yalnız ruh və imana dair ideyalara ciddi ehtiyacı olan miqrantlar yol verə bilərlər. Onların olmaması bu gün müşahidə etdiyimiz kimi, Fransa, İngiltərə və digər Avropa dövlətlərində kütləvi və öz mahiyyə-

tinə görə nizamsız aksiya və dağıdıcı hərəkətlərə gətirib çıxarır. Aydın olduğu kimi, bu insanlar öz sosial və iqtisadi vəziyyətlərindən daha çox bu cəmiyyətlərdə onlar üçün ideya oriyentirlərinin olmamasından narazıdırlar. Buna görə də hakimiyyət onların qəlbinə yol tapa bilmir və çox güman ki, tapa da bilməyəcək, çünki onların zədələnmiş şüurlarını dəyişmək yolları hələ də məlum deyil. Hansısa bir fransızın yanında olduqda mühacirlərdən heç biri özünü ona bərabər tutmur və ola bilsin ki, artıq bu anadangəlmə ideya çatışmazlığı və tam dəyərə malik olmama kompleksi heç bir sosial-məişət xarakterli qərarla aradan qaldırıla bilməz. Təəssüflər olsun ki, nəyə görəsə hamı səbəbləri məhz bu cür insanların ictimai-iqtisadi problemlərinin həllində axtarır, lakin mənə elə gəlir ki, bu amil yalnız ikinci dərəcəli rol oynayır. Səbəb isə onların sosial davranışında əsas ola biləcək ideyaların olmamasındadır. Əgər Fransa hökuməti onlar üçün ən müasir yaşayış kompleksləri tiksə və həmçinin bütün miqrantları iş və müavinətlərlə təmin etsə belə, yenə də sakitlik yalnız müvəqqəti xarakter daşıyacaq – bu şəxsləri birləşdirən ideyaların olmaması tez ya da gec özünü göstərəcək. Vandalizm, talanlar və yanğınlar üçün bir çox digər səbəblər də tapmaq mümkündür. **Ona görə də ideyalar hər birimizin həyatında həlledici rol oynayır – onlar bizim şüurumuzu qərar qəbul etməyin bu və ya digər istiqamətinə yönəldir.**

Bütün bunlar insanların şüuru üzərində hakimiyyətin qeyri-məhdud hüquq və səlahiyyətlərə malik olan dünyəvi hakimiyyətdən daha güclü və vacib olduğunu bir daha təsdiqləyir. Hakimiyyətin bu iki forması müqayisəedilməzdir, lakin onlar bir əldə cəmləndiyi zaman belə hakimiyyət möhkəm və uzunömürlü olur. Düşünürəm ki, bunu əmlaka deyil, şüura yiyələnməyi daha üstün tutan kəslər daha yaxşı anlayar. **Hər bir əmlak şüurun bəhrəsidir, şüura malik olduqda əmlaka da yiyələnmək mümkündür**. Bu, hakimiyyətə aparan uzun və zamanının sınağından keçmiş ən doğru yoldur. Hət-

ta Qüdrətli Allah öz istədiklərini həyata keçirəndə belə birinci növbədə təfəkkür tərzini dəyişə bilən şüur amilini nəzərdə saxlayır. Çünki Onun özünün yaratdığı insanın, yüzillik tarixin göstərdiyi kimi, şüuru bəzən Allah tərəfindən müəyyən olunmuş sərhədlər çərçivəsindən kənara çıxır. Uca yaradan bu vacib amili nəzərə alaraq insanlarla münasibətlərini tənzimləyir. Allah tərəfindən nazil olmuş Müqəddəs Kitabların bizə öyrətdiyi kimi, bəzən insanın müəyyən olunmuş sərhədlər daxilinə qayıtma yolu cəhənnəmdən, günahını təmizləmədən və Allah tərəfindən düşünülmüş və kitablarda öz əksini tapmış digər cəzalardan keçir.

Güman edirəm ki, sonuncu abzası bu kiçik söhbətdə deyilənlərdən çıxarılan nəticələr hesab etmək olar.

# BİRİNCİLİK OYUNU:
# HAKİMİYYƏT VƏ DİN

*(oxucu ilə söhbət müsahibə şəklində hazırlanıb)*

*Hər bir dində fundamentalizm əlamətləri mövcuddur. Bu da dinin uzunömürlü olmasını şərtləndirir*

*- Azərbaycanda hansı dini cərəyanlar və onların qolları radikal və ya radikallığa meylliliyi ilə fərqlənirlər? Əsasən iki istiqamətin adı çəkilmişdi: vəhhabilik və nurçuluq. Sualın bu cür qoyuluşu sizi qane edirmi? Bununla bağlı fikirlərinizi eşitmək istərdik.*

- Belə bir fikir mövcuddur ki, siyasi və ya dini olmasından asılı olmayaraq, istənilən cərəyan, həmçinin həmfikir cəmiyyətlər ictimai davranış xarakterinin ümumi qaydalarına malikdir. Bu, əsasən, psixoloji durumla bağlıdır. Bu vəziyyətlə əlaqədar olaraq sizin qeyd etdiyiniz zaman kəsiyində keçirilən mətbuat konfransları və seminarlarda şiə cərəyanının radikal qolundan ümümiyyətlə yan keçirlər. Bir məsələ müəmmalı olaraq qalır: bu, kimə sərfəlidir? Axı, vəhhabi dini-siyasi cərəyanı XIX əsrin ortalarında Saudlar krallığının (indiki Səudiyyə Ərəbistanı) yaradılmasının ideoloji bazasına çevrilmişdi. Lakin hazırkı hökumət vəhhabilərin radikal qanadı ilə özü mübarizə aparmağa məcburdur. Hələ XVI əsrdə Şah İsmayıl Xətainin fəal iştirakı ilə İran dövlətçiliyinin qorunub saxlanması üçün islamın şiə məzhəbi dövlət ideologiyası və bazası xarakteri daşıyırdı. O zamandan bəri şiəlik arabir,

xüsusən də şah hakimiyyəti dövründə dövlətin siyasi rəhbərləri tərəfindən ikinci plana keçirilirdi. Halbuki, bu gün şiəliyin radikal qanadı Livanda (hizbullah), Suriyada və başqa dünya ölkələrində geniş fəaliyyət göstərir. Azərbaycan bu sırada istisna deyil və son dövrlərdə baş vermiş hadisələr, həmçinin respublikanın bəzi regionlarında mövcud vəziyyət buna bir sübutdur.

Təbii ki, hər bir dini cərəyanın mötədil, passiv-mühafizəkar və aktiv-radikal ardıcılları olur. Bu haqda susmaq, bu və ya digər dini cərəyanın ardıcılları sırasında yalnız mötədil tərəfdarların mövcudluğunu söyləmək heç də düzgün olmazdı. Bu səbəbdən, mən elə düşünürəm ki, ölkəmizdə mövcud dini vəziyyətin mənzərəsi məhz dini etiqadları nəzərə almadan, bütün radikallara bərabər və ədalətli münasibət prizmasından baxdıqda, az-çox daha aydın görünür. Səid Nursinin ardıcılları (yəni nurçular) içərisində digər iki cərəyanın üzvlərinə oxşar aktiv-radikal şəxslər hələ ki nəzərə çarpmır, lakin nurçuluğun yaranma və yayılma tarixini nəzərə alsaq, belələrinin meydana çıxacağını istisna etmək olmaz. Nurçular – cərəyanın bir qrup savadlı və gənc ardıcıllarının düzgün dini tərbiyə metodu və mülayim yollarla hakimiyyətə gəlməyin tərəfdarlarıdırlar. Bununla belə, qeyd etmək lazımdır ki, Səid Nursinin şəxsi fikirləri Azərbaycanda bu gün çox geniş yayılmayıb. Hazırda Baş qərargahı Vaşinqtonda yerləşən, Rusiya, Mərkəzi Asiya, həmçinin Qafqazda geniş təhsil və media strukturları şəbəkəsinə malik Səid Nursinin davamçısı Fətullah Gülən önəmli rol oynayır. Fətullah Gülən tərəfindən Qafqazda yaradılan təhsil və media strukturlarının 90 faizi isə Azərbaycanın payına düşür.

Beləliklə, bu gün Azərbaycanın gələcəyi ilə bağlı dini xəritə masası ətrafında, belə demək mümkünsə, üç əsas «oyunçu» əyləşib:

**Vəhhabilik, Şiəlik, Nurçuluq**

Birincisi və üçüncüsü sünni məzhəbinə aiddir, baxmayaraq ki, hər biri müəyyən vaxt kəsiyində dinin və hətta, Müqəddəs Quranın mahiyyətini müxtəlif cür başa düşür.

Göründüyü kimi, onlardan hər biri öz niyyətini, istəyini ortaya qoyub, yerdə qalan isə hakimiyyətdən asılıdır. Maraqlıdır, dövlət hansı addımı atacaq, vəziyyətdən qalib çıxa biləcək, ya yox? Bu, yəqin ki dinlə dövlətin qarşılıqlı münasibətlər sistemində ən vacib sualdır. Masa arxasında geniş təcrübəsi, külli miqdarda maliyyə və intellektual kapitalı olan ciddi «oyunçular» əyləşib.

*- Necə düşünürsüz, qloballaşma prosesində dinin rolu nədən ibarətdir? Dinin özünün geniş mənada etika, əxlaq və mənəviyyata qayıdışı mümkündürmü? Demək olarmı ki, iman ruh üçün, siyasət isə ağıl və biznes üçündür?…*

- Unutmayın ki, yaxın keçmişdə fundamentalizm sözü çox dəbdə idi, fundamentalizmin və mühafizəkarlığın, demək olar ki, eynimənalı anlamlar olduğunu unudaraq hər kəs islam fundamentalizmi barədə böyük həvəslə danışırdı. Əslində, istənilən din geniş mənada fundamentalizm «xəstəliyinə» yoluxub. Belə olmasaydı, hazırda heç bir din mövcud olmazdı. Bu, kralın (kraliçanın) indiyə kimi eyni zamanda anqlikan kilsəsinin başçısı olduğu İngiltərədəki mühafizəkarlığa bənzəyir. Vaxtilə, 1979-cu ildə şah rejiminin devrilməsindən sonra Qərb ölkələri islamda nəzərə çarpan dərəcədə sürətli və onlar üçün qismən təhlükə yaradan dirçəlişə qarşı çıxırdılar. Məhz bu səbəbdən də islama aid edilən bütün mənfi xüsusiyyətləri özündə birləşdirən başqa anlam olmadığı səbəbindən, fundamentalizm sözünü islama aid edirdilər. İndi fundamentalizmi yada salan yoxdur, hər kəsin dilində vəhhabilikdir. Fundamentalizm təzahürünə qarşı aparılan gərgin mübarizənin tərəfdarlarından fərqli olaraq, bu dəfə müsəlman din xadimlərinin bir hissəsi vəhhabiliyə qarşı

müharibə elan edib. Nəticə etibarilə, Qərb və xristian dünyası bütövlükdə hadisələrin bu cür gedişatını istəyirdilər. Daha dəqiq desək, ilanı qonşunun əli ilə tutmaq niyyətləri var. Müsəlmanların bir hissəsi radikal islamçılara qarşı müharibənin qatı tərəfdarları sıralarına qaynayıb-qarışıblar. Lakin onlar dərk etmirlər ki, tezliklə bütün müsəlmanlara – radikallara, mötədillərə və ümumiyyətlə, siyasi oyunlar haqqında heç bir anlayışı olmayan adi insanlara qarşı da müharibə elan olunacaq (əgər müharibənin artıq başlandığını zənn etməsək). Halbuki, məntiqli bir sual meydana çıxır: «Bütün bunlar olmaya bilərdimi?». Çox təəssüf, düşünürəm ki, yox. XX əsrin ikinci yarısında və indiki yüzillikdə də dünyada gedən istənilən siyasi mübarizə meydanında dini amillər var və yəqin ki, olacaq; «soyuq müharibə» illərində də ona ehtiyac var idi. Zənnimcə, "marksizm ideologiyasının məğzini ateizm təşkil etməsəydi, onu böyük siyasət və həmçinin kapitalizmlə sosializm arasında gedən amansız müharibə meydanından sıxışdırmaq bu qədər asan olmazdı" söyləyən şəxslərin fikirləri doğrudur. Məlum olduğu kimi, sosializm-marksizm ideologiyasının əsas simləri ateizm üzərində köklənmişdi. Bu səbəbdən, marksizmin sovetlər məkanında süqutu ilə başa çatan «soyuq müharibə»nin ardınca, digər ideologiyaya (imana qarşı yox, ideologiyaya qarşı) – dünya əhalisinin 1/3 hissəsinin etiqad etdiyi dinə, islamın əsaslarına qarşı müharibə başlandı. Görünür, bu ideologiya tərəfdarlarının başqa müqavimət vasitəsi olmadığı üçün, istənilən yollara – fanatizm, ekstremizm və intiharçılıq (terrorist – kamikadzelər nəzərdə tutulur) metodlarına əl atırlar.

İslam dünyası Qərb ölkələri kimi inkişaf etmiş, güclü, yaxşı silahlanmış olsaydı, radikallarının fikrincə, cəza silahı kimi terror və terrorçuluq, yəqin ki, istifadə olunmazdı: bu halda tarix boyu Şərqdə və Qərbdə uğurla tətbiq olunan klassik üslublardan istifadə edilərdi. Təəssüf ki, tarixdə, o

cümlədən müasir tarixdə bu subyektiv mülahizələri təsdiq edən çox sayda faktlarla qarşılaşırıq.

Düşünürəm ki, məntiqi təfəkkür sahibləri məni başa düşəcək. Başqalarına isə dini-siyasi və yeni bazarların, gəlir mənbələrinin fəth edilməsi yolunda, məhdud maliyyə-iqtisadi maraqlar çərçivəsində dövran edən qəliz dini-siyasi məsələləri başa salmaq heç də asan iş deyil. Necə deyərlər, hər kəs öz pulunu sayır və məbləğindən asılı olmayaraq, görünür ki, para yenə də azlıq edir. Bəşəriyyətin inkişaf tarixində hər zaman istənilən dövlət təsisatının əsasını əmtəə-pul münasibətləri təşkil edib. Belə insani qüsurlar hər bir cəmiyyət, hər bir ölkə, hətta, Afrika və Latın Amerikası cəngəlliklərində yaşayan qəbilələrdə belə mövcuddur. Bu səbəbdən, dinin özü, o cümlədən islam qlobal proseslərdə və tarixi dəyişikliklərdə heç bir fəal aparıcı rol oynamayıb və oynamayacaq. Təəccüblü olsa da, hər şey siyasətçilərin əlindədir. Din isə tamamilə real olan «kapital» adlı şirin kökənin böyük bir parçası uğrunda gedən mübarizədə, sadəcə olaraq, özünəməxsus və lazımlı bir alət olaraq qalmaqdadır.

# III FƏSİL

## HÜQUQ, ƏXLAQ VƏ DEMOKRATİYA

*(üç aktyorun tragikomediyası)*

# «HÜQUQ VƏ ƏXLAQ» - İNSANIN SEÇİM MEYARLARI

*İnsan digərinin kədərinə biganə olmamalıdır: Kədər fərdiləşdikcə, yükü ağırlaşır.*

(Məqalə 13 iyun 2004-cü ildə İspaniyanın paytaxtı Madrid şəhərində törədilmiş terror aktından sonra yazılmışdır)

*Hüquq və əxlaq*: bu iki anlayış əsrlər boyu mövcud olub və hər bir şəxsin davranışının özəyi kimi mənəviyyatımızın bizə verdiyi hüquqlara uyğun şəkildə mövcuddur. Biz nə dərəcədə əxlaqlı olmalıyıq ki, başqa insanların hüquqlarını pozmayaq? Müxtəlif üsullarla arabir dünyanı sarsıdan, hətta, «Yanımdan ötən güllə qardaşıma dəydi, Şükür Allaha» - deyənlərin sayı çoxalıb. Özünü «biganəlik» adlı dəhşətli psixoloji duruma alışdıran insanları belə şok halına salan fəlakətlərin beynəlxalq hüquq normalarına uyğunluğunu sübut etməyə çalışarkən insan nə dərəcədə haqlı olur?

Ayın ən dəhşətli hadisəsi İspaniyanın Madrid şəhərində baş vermişdir. Terror aktı nəticəsində günahsız insanlar həlak olmuş – yüzlərlə insan qətlə yetirilmiş və yaralanmışdır. İnsanların bir çoxu həyatlarının sonuna kimi əlilliyə məhkum oldu. Terrorçuların ən ibtidai əxlaqdan belə uzaq olan cinayətkar əməlləri insanlara hədsiz kədər və iztirab gətirdi. Bu terrorçular bütün bəşəriyyətin düşmənləridir. Bu amansızlar minlərlə insanı qətlə yetirmək və şikəst etməklə digərlərinin, o cümlədən hər birimizin arzularına, amalına, gələcəyinə qəsd etmiş oldular. Bizim sülhə, firavanlığa və xoşbəxtliyə

bəslədiyimiz ümidlər növbəti dəfə puça çıxaraq daha da zəiflədi.

Biganəlik hisslərinə qayıdıb sahib olduqlarımızı təhlil etsək, belə bir nəticəyə gəlmək olar ki, dünyadakı bir çox insanlar üçün dünyanın məzmunu dəyişib. Əxlaq qaydalarına əməl etmək, bu və ya digər hərəkəti **seçmək hüququ** nöqteyi-nəzərindən daha mürəkkəb vəziyyət yaranıb.

Bəli, bəziləri başqa insanları qorxuya salan terror və qətli seçib. Bu gün ən biganə şəxs belə səhər tezdən elektrik qatarına əyləşərək pəncərədən görünən mənzərəni seyr edib şadlana bilmir. Hər zaman özündən asılı olmayaraq insan həyatını «sivil» Avropanın mərkəzində bir anda dəhşətə çevirməyə qadir olan cəhənnəm maşınının bu qatarda olub-olmaması ilə bağlı fikirlər ona iztirab verir. Söhbət təəssüf ki, orada qəbul olunmuş standartlara – «demokratik standartlara; qanunun aliliyinə; ədalət və əxlaq; bütün ölkələrə və millətlərə bərabər münasibət standartlarına» uyğun yaşamaq və çalışmağı diktə etmək hüququnu özbaşına mənimsəmiş XXI əsr Avropasından gedir.

Həqiqətənmi bu, belədir?

İspaniyadakı faciə avropalıların qulaqlarına hələ yenicə çatmış Xocalı əks-sədasına oxşamırmı? Bu, başqalarının dərdinə biganəlik və etinasızlığın, demokratik Avropanın digər ölkələrə tətbiq etdiyi ikiqat və hətta üçqat standartların nəticəsi deyilmi?

Axı, on altı ildir ki, Avropanın bir çox demokrat, sosialist, mühafizəkar və islahatçıları üzdə olan faktları qiymətləndirib və təsdiq edib demirlər ki, **«bəli, hörmətli Azərbaycan xalqı, biz sizi başa düşür və dərdinizə şərikik. Xocalı soyqırımına həsr olunmuş filmə baxarkən danılmaz vəhşilik və insaniyyətsizlik faktları açıq-aydın nəzərə çarpır. Bəli, bu dəhşətli qətlləri həyata keçirən şəxslər terrorçulardan qat-qat amansızdırlar, çünki onlar qarşı-qarşıya durduqları insanın gözlərinin içinə baxaraq, imdad diləməsini**

**eşidərək öldürürdülər. Onlar qocaları, qadınları və uşaqları ələ salaraq məhv edirdilər. Ölümlə üzləşərək azyaşlı körpəsini bağrına basmış qadının vəziyyətini isə nə istedadlı yazıçı, nə də dünyanın ən görkəmli psixoloqu təsvir edə bilməz».**

**Bu, sevgi və qorxu, xeyir və şərin qiymətləndirilməsi, dünyanın və hətta, başqalarının ölümündən həzz alan qəddar, bədheybət insanları yaratmağı özlərinə rəva görən qüdrətli tanrıların mövcudluğuna inamsızlıq, ümidsizlik timsalıdır**.

Bütün bunları dərk etməyən, zərərçəkmişləri dəstəkləməyən, onların halına acımayan və belə vəhşi əməllərə əl atan insanları ifşa etməyən, yalnız əzab-əziyyət kimi insani hisslərdən uzaq olanlar «hüquq», «əxlaq» sözlərinin əsl mənasını və mahiyyətini dərk etməyən şəxslərdir.

Əlbəttə, demək olar ki, «kimin harası ağrısa, o barədə də danışacaq». Mən Sizinlə razıyam və fikirlərinizlə həmrəyəm, ancaq məni təəccübləndirən odur ki, baş vermiş bu dəhşətli terror aktı ilə əlaqədar olaraq İspaniyaya başsağlığı və təəssüfünü bildirmək üçün Azərbaycanda bu ölkənin maraqlarını təmsil edən xarici səfirliyə bir nəfər də yollanmadı. Bu da dəhşətli bir haldır. Deməli, artıq bizim qəlbimizdə mərhəmət hissindən əsər-əlamət qalmayıb. Biz də başqasının dərdinə etinasız yanaşmağı üstün tuturuq.

Mən əminəm ki, belə hallarda biz biganəliyə biganəliklə cavab verməməliyik. Düzdür, buna mənəvi haqqımız var, lakin bizim əxlaqımız belə hərəkətləri qəbul etməməlidir. Biz bu tərzdə davrana bilmərik və davranmamalıyıq, çünki biganəlik ata və babalarımızın bizə aşıladığı insani hisslərdən uzaqdır.

Son beş il ərzində biz avropalılardan çox şey öyrənmişik. Lakin bizim dərdimizə – ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırıma qarşı göstərdikləri etinasız münasibətlər belə, bizi əxlaqımızdan döndərə bilməz. Biz bu mə-

sələdə avropalılardan nümunə götürməməliyik. **Əxlaq, sözün əsl mənasında, hüquqdan yüksəkdə durur və belə hallarda biz mütləq əxlaq normalarımıza, çoxəsrlik adət-ənənələrimizə sadiq qalmalıyıq.**

Mərhəmət hissi və başqasının dərdinə şərik çıxmaq dərdi yüngülləşdirir. İnsan dərdini bölüşdüyü zaman mənəvi cəhətdən rahatlaşır.

Biz, təbii ki, öz yaxınlarını itirmiş insanların dərdinə şərikik və həlak olanların ailə üzvlərinə, ümumiyyətlə, bütün İspaniya xalqına dərin hüznlə başsağlığı veririk. Bir daha terror və ekstremizmə qarşı mübarizə təşəbbüsünü dəstəkləyir və bütün dünya xalqlarını təkcə terrorla deyil, həm də biganəliyə qarşı mübarizə aparmağa çağırırıq. Terror və biganəlik bir-birindən qidalanır. Biganəlik qanunsuz və özbaşına hərəkətlər zamanı terrorçularda əminlik hissi yaradan və insanların canına qəsd kimi iyrənc əməllərini davam etdirməyə imkan verən passiv yardımdır. Bu, həqiqətən belədir.

Bütün dünyanı bürümüş qanlı hadisələrin yalnız düzgün izahı, qiymətləndirilməsi, həmçinin dərk olunması vasitəsilə terrora qalib gəlmək və onun gətirdiyi bədbəxtliklərə sinə gərmək daha asan olar. Bizim həmrəyliyimiz «XXI əsrin fəlakəti» olan terrora qarşı mübarizədə qalib gələcəyimizə əminlik yarada bilər. Lakin etiraf etməliyik ki, dünyada hələ də terror aktlarının törədilməsinə dair «bəhanələr», həmçinin müəyyən obyektiv və subyektiv şərtlər mövcuddur. Bu şəraiti yaradanların özü terrorçulara şərikdir – desək, zənnimcə, yanılmarıq.

**Nə qədər ki dünyada hüquq və əxlaq normalarına sığmayan müharibələr, qanlı toqquşmalar və işğallar var, nə qədər ki onlara qarşı layiqli mübarizə aparılmır və siyasi-iqtisadi, maliyyə maraqları hüquq və əxlaq normalarından üstün tutulur, biz hələ uzun müddət mənəvi rahatlığımızı əlimizdən alan, bir çox insanları rəhm hissin-**

**dən məhrum edən həmin o terrorçunu gözləyərək qorxu içində yaşayacağıq.**

# DİKTATURA VİRUSUNA QARŞI MÜBARİZƏ APARMAQDA DEMOKRATİYA VİRUSUNA NƏ MANE OLUR

*İnsanın bütün səhvləri, təəssüf ki, Allah tərəfindən ona verilən şüurun məhsuludur.*

*(Yaşlı gözlərlə siyasi həcv)*

Son zamanlar Kosovo, Əfqanıstan, İraq, Fələstin, və Dağlıq Qarabağda baş vermiş hadisələr nəticəsində beynəlxalq hüquq sistemi dərin çat verib. Hüquq incə materiyadır və təbii ki, onun tərkib hissələri olan bütün xalqlar və ölkələrin qarşılıqlı münasibətləri əksəriyyət tərəfindən qəbul olunmuş norma və mexanizmlərə uyğun tənzimlənir. Bu proses özbaşına müdaxiləyə tab gətirə bilməz. Beynəlxalq hüquqları pozan insanlar qanuna müvafiq olaraq, ciddi şəkildə cəzalandırılmalıdırlar.

Təəssüf ki, Yer kürəsinin vətəndaşları son zamanlar başqa şəraitə uyğunlaşıblar. İndi güclü zəifliyi ucbatından sözügedən hüquqların bəzi müddəalarını və sosial qanunun ayrıca maddələrini pozmuş gücsüzü «əzir». Onlara qarşı mübarizə hüquq normaları çərçivəsində deyil, hərbi qaydalara əsasən, həddən artıq sərt aparılır - məhkəməsiz və istintaqsız. "Beynəlxalq hüquqşünasların" xəcalətinə səbəb olan bu mübarizə tez-tez partlayan raket və mərmilərin, «şəhid» kəmərlərinin əks-sədası ilə bəşəriyyətin bütövlükdə qəbul etdiyi hüququ məhv edir.

Telekanallarda yayımlananlara əsaslanıb belə bir qənaətə gəlmək olar ki, bütün bunlar insanların bir çoxunda nə-

inki bizim üçün ənənəvi olan psixoloji şok halının yaranmasına səbəb olmur, hətta tədricən yox olan adi mərhəmət hissini belə doğurmur.

Lakin, görünür, hələ hər şey göründüyü kimi də pis deyil: KİV-lərin verdiyi məlumata görə, bu yaxınlarda İraqda günahsız bir İtaliya vətəndaşının edamı bütün İtaliyanı və Avropanın bir çox ölkələrini ciddi şok vəziyyətinə salmışdı. Yəqin, iş burasındadır ki, insan qəlbi psixofizioloji xüsusiyyətləri üzündən, şahidi olduğumuz bu qədər ağrı və acıya hər gün biganə qala bilməz.

Əgər insan təbiətin bizə diktə etdiyi kimi hərəkət etsə, o zaman dünya böyük intensiv terapiya otağına çevrilə bilər. Ola bilsin ki, məhz belə hallar üçün əsrlər boyu bir atalar sözü mövcud olub: «İnsanın öz köynəyi bədəninə daha yaxındır» (necə deyərlər, "qarın qardaşdan irəlidir") və ya fransız filosoflarından birinin sözlərinə görə, «bütün dünya üçün ağlamaq olmaz – birini seçmək lazımdır». İndi hər kəs öz komasının yanında ağlayır və öz arabasını qoruyur.

Radio, televiziya, media və digər Kütləvi İnformasiya Vasitələri hər saat bizim üzərimizə o qədər informasiya «yağdırırlar» ki, bəzən «ürək» adlı kiçik motor eşidilən, görülən və oxunan dəhşətlərdən kiçilir. Öz növbəsində, idrak daxil olan informasiyanın bələdçisi və süzgəci qismində qəlbə yardım etməkdən imtina edir.

Bəzən belə təsəvvür yaranır ki, ağlımız ətrafda baş verən hadisələri ümumiyyətlə təhlil etmir: «… aprel ayı ərzində 1200 nəfərdən çox iraqlı qətlə yetirilib; müharibə koalisiya qüvvələrindən olan 70 nəfər əsgərin həyatına son qoyub». Birinci halda «qətlə yetirilib», ikincisində isə - «həyatına son qoyub». Dünyanın televiziya kanalları icmalçılarının sözlərinin dəqiqliyi heyranedicidir: «müharibədə qətlə yetiriliblər», «həyatına son qoyulub».

Birinci halda insan bədəninin hissələrindən ibarət qardaş məzarı, ikinci halda isə müasir superdemokratiyanın

qəhrəmanlarına yaylım atəşləri ilə müşayiət olunan təntənəli dəfn mərasimi olacaq.

Yəqin, hələ «qətlə yetirilməyən» və «göyə sovrulmayan» şəxslər küləklə sovrulanları deyil, dəhşətli, amansız və artıq heç kimə lazım olmayan müharibə ilə sovrulanları tez-tez xatırlamalıdırlar.

Bunların hamısı birlikdə bu gün əsasında yeni və bu vaxtadək dünyanın siyasi elminə məlum olmayan XXI əsr demokratiyasının dayağı olan beynəlxalq hüququn sonu gəldiyinə işarə edir. Bu sistemin başlıca tərkib hissələrinin inşasının tamamlanması ilə, görünür, beynəlxalq hüquqa da ciddi ehtiyac qalmayacaq, çünki bu cür demokratiyanın əlavələrə ehtiyacı yoxdur, xüsusən ona görə ki, hüququ vaxtilə Avropanın və Amerikanın hansısa özündən razı centlmenləri çay və ya şərab süfrəsi ətrafında toplaşaraq uydurmuş, sonra isə ona «beynəlxalq» sözünü əlavə etmişlər.

Diqqətlə nəzər salsaq, hər bir ölkə əhalisinin tərkibində bir neçə xalqın nümayəndələrinin yaşadığını görə bilərik. Bu ölkələrdə də beynəlxalq sözünü əlavə edərək, həmin hüququ qurmaq olar.

Məhz belə bəsit məntiqi nəzəriyyədən bu nəticə çıxır ki, biz çoxlu sayda beynəlxalq hüquq əldə edə bilərik və bunun da nəticəsində, vaxtilə müəyyən edilmiş və hal-hazırda demokratiya «atalarının» şiddətlənən fantaziyalarını qəbul etmək qabiliyyəti verilməyən qəlblərimizin psixi və fizioloji imkanları tükənməkdədir. Lakin onlar öz «qlobal fantaziyalarını» təcrübi işlərlə möhkəmləndirərək, onları real ideyaya çevirməkdə bəzi çoxbilən və imkanlı şəxslərə mane olan beynəlxalq hüquq öz-özünə yox olacaq.

Deyirlər ki, ayrı-ayrı ölkələr və xalqlar sınaqlar üçün elə-belə, yəni «təsadüfən» seçilməmişlər. Onlar sağlam dovşan rolunu oynamalıdırlar. Doğrudur, sonralar onlar orqanizmlərinə yeridilmiş virus üzündən xəstələrə çevrilirlər. Lakin hər birimiz bilirik ki, necə deyərlər, bu, bəşəriyyətin bir sıra xəstə-

liklərdən xilası kimi xeyir iş naminə həyata keçirilir. Belə təsəvvür yaranır ki, bu xalqlara – «seçilmişlərə» demokratik prinsiplərin yeni sistemini təsdiq etmək üçün həyata keçirilən tarixi təcrübənin məğzi kifayət qədər düzgün aydınlaşdırılmamışdır. «Demokratiya virusu» artıq yeridilib, orqanizm reaksiya verib, immun reaksiya prosesi başlayıb, çoxalmanın saat mexanizmi tıqqıldayır və nəticə isə bir müddət sonra məlum olacaq.

Müxtəlif növ virusun inkubasiya dövrü də fərqlidir. Yerdə qalanı indi yalnız təcrübənin əks təsiridir. Ola bilər ki, diktatura virusu demokratiya virusunun fəaliyyətini məhdudlaşdırır, axı, sonuncu İraq cəmiyyətində heç zaman dominant olmayıb. Buna baxmayaraq, eyni zamanda orqanizmdə iki virusun olması arzuolunmaz bir haldır, ancaq, görünür, başqa çıxış yolu yoxdur.

İndi bizə zəif və taqətdən düşmüş orqanizmin müqəddəratını həll etməyə qadir olan iki virus arasında gedən mübarizənin sonunu gözləmək qalır. Lakin beynəlxalq demokratiya laboratoriyasının məlumatına əsasən, oraya növbəti, üçüncü virus – guya «ruhi-bioloji» ünsürü tarazlaşdıran dini fanatizm və ekstremizm virusu daxil olur. Tibb işçilərinin sözlərinə görə, əgər bir-birindən asılı olmayan üç virusun bir orqanizmdə yaşaması mümkün olarsa, bu hadisəyə qabaqcadan mövcud bütün mükafatları, medalları vermək və onu «XXI əsrin qızıl kəşfi» adlandırmaq olar.

Bizə isə yalnız demokratiya virusunun diktatura virusu ilə necə mübarizə apardığını və dini fanatizm virusunun digər iki virusun zəifləyəcəyi və bir orqanizmə uyğunlaşa bilməyəcəyi təqdirdə hansı tədbirlər görəcəyini müşahidə etmək qalır.

Biologiya və tibb elmlərindən bizə məlumdur ki, virus bir «cisim»dir, əsas etibarilə, canlı orqanizm deyil və təxminən robot kimi hərəkət edir. Tibb işçiləri yalnız bir şeydə şübhə edirlər: dini fanatizm virusu onlar tərəfindən kifayət qədər öy-

rənilməyib və digər viruslardan fərqli olaraq o, tam başqa tip və xassələrə malik ola bilər, çünki onun «davranış» və strukturu məntiqi, elektron-mikroskopik təhlillərə uyğun gəlmir. Bu cür gözlənilməz və qəribə element kifayət qədər «qanuni», həmçinin yüzilliklərlə təsdiq olunmuş demokratiya və diktatura viruslarının sivil mübarizəsinə mane olur.

Çox az zaman qalıb.

Sadəcə səbirli olub, gözləmək lazımdır.

# MÜNDƏRİCAT

Ön söz……………………………………………………………………3

**I FƏSİL.** DİN VƏ CƏMİYYƏT
(mahiyyətcə dünyəvi olan qanunların
nəzəriyyəsi və tətbiqi)…………………………………………………5

**a**. İnam və sevgi…Ağıl və ruh……………………………………..7
**b**. İdeya ölməzdir, onu yalnız digəri ilə əvəzləmək olar………..13
**c**. Siyasət və din mənəvi-əxlaqi dəyərlər fonunda………………..18
**ç**. Azərbaycanda iman mədəniyyəti………...……………………...24
**d**. Biz düzgün etiqad edirikmi?..………………………………………31

**II FƏSİL.** DİN, CƏMİYYƏT VƏ HAKİMİYYƏT
(Əxlaq – din, Demokratiya – cəmiyyət,
Hüquq – hakimiyyətdir)…………………………………..…………37

**a**. Din və hakimiyyətin qarşılıqlı münasibətləri…………………….39
**b**. Birgə mövcudluğun əsas prinsipləri…………………….………43
**c**. Beynəlxalq Sülh və İbadət Günü………………………………...50
**ç**. İman və hakimiyyət balansı………………………………………56
**d**. Birincilik oyunu: hakimiyyət və din………………………………60

**III FƏSİL.** HÜQUQ, ƏXLAQ VƏ DEMOKRATİYA
(üç aktyorun tragikomediyası)………………………………………65

**a**. «Hüquq və əxlaq» - insanın seçim meyarları……..……………67
**b.** Diktatura virusuna qarşı mübarizə aparmaqda
demokratiya virusuna nə mane olur…………………..……………72

Mündəricat ……...…………………………………………………...77